QƏZƏNFƏR
PAŞAYEV



# ƏDƏBİYYATŞÜNASLIQ ELMİMİZİN PATRİARXI

**QƏZƏNFƏR PAŞAYEV**

# ƏDƏBİYYATŞÜNASLIQ ELMİMİZİN PATRİARXI

**Bakı - "Ozan" - 2010**

*Elmi redaktoru*
*və ön sözün müəllifi:* **Asif Rüstəmli**

**Qəzənfər Paşayev. "Ədəbiyyatşünaslıq elmimizin patriarxı", Bakı, "Ozan", 2010, 104 səh., 24 səh. rəngli şəkil.**

***Professor Qəzənfər Paşayevin "Ədəbiyyatşünaslıq elmimizin patriarxı" kitabı görkəmli elm xadimi, "Şöhrət" və "İstiqlal" ordenli, Dövlət mükafatı laureatı, akademik Bəkir Nəbiyevin şəxsiyyəti və yaradıcılığı haqqında portret-cizgilərdir.***

***Əsər geniş oxucu auditoriyası üçün nəzərdə tutulmuşdur.***

**Q - 4702060204-69 / On-047-10 -2010**

**© "Ozan" nəşriyyatı - 2010**

# PATRİARXIN PAYIZI

Patriarx sözü mənşə etibarilə yunanca olub başçı, öndər, nəsillər atası anlamına çox yaxındır.

Professor Qəzənfər Paşayevin Azərbaycan elminin və ictimai fikrinin inkişafına 60 ildən çox xidmətlər göstərən, Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı, "Şöhrət" və "İstiqlal" ordenli, akademik Bəkir Nəbiyevə həsr etdiyi kitabına "Ədəbiyyatşünaslıq elmimizin patriarxı" adını verməsi fikrimcə zərgər dəqiqliyi ilə ölçülüb-biçilərək seçilmiş sərlövhədir. Professorun özünün də qeyd etdiyi kimi doğurdan da Bəkir müəllim bir neçə ədəbiyyatşünaslar nəslinin müəllimi, mənəvi atası və patriarxıdır.

Kitabda akademik B.Nəbiyevin elmi yaradıcılığının, şəxsiyyətinin, iş üslubunun, insani münasibətlərinin müəyyən məqamlarını işıqlandıran və müxtəlif vaxtlarda qələmə alınan yeddi elmi məqalə öz əksini tapmışdır. Məzmun etibarilə bir-birinə bənzəməyən, hərəsinin öz məcrası, öz təqdimat orijinallığı, öz sanbalı olan, səmimi hiss və duyğularla cilalanmış dolğun lövhələr Bəkir Nəbiyevin əzəmətli portre-

tinin mükəmməl təqdimatına istiqamətlənmişdir. Müəllif "Nə yaxşı dünyada yaxşı var imiş" məqaləsində akademiklə necə tanış olmasından söz açır və çoxlarımızın müəllimi olmuş Abbas Zamanovu qədirşünaslıqla xatırlayır. Yeri gəlmişkən qeyd edim ki, xalqımızın bu iki görkəmli şəxsiyyəti - Bəkir müəllim və Qəzənfər müəllim ilə mənim də yaxından ünsiyyət qurmağımda AMEA-nın müxbir üzvü, poetik tənqidimizin banisi, professor Yaşar Qarayev səbəbkar olmuşdur və bu xeyirxah insanın, böyük alimin nurlu xatirəsi qarşısında ehtiramımı bildirirəm. Bir çox həmkarlarım kimi mən də həyatımın müxtəlif zamanlarında akademik Bəkir Nəbiyevin və professor Qəzənfər Paşayevin təmənnasız xeyirxahlığından, elmi məsləhətlərindən və mənəvi dəstəyindən qədərincə barınmışam. Bu böyük alimlər istedadlı gəncləri, işıqlı düşüncələri dəyərləndirməkdə heç zaman xəsislik etməyiblər. Ona görə də gənc alimlər Bəkir müəllimlə Qəzənfər müəllimi çox zaman özlərinin müəllimi və hamisi kimi də görürlər.

Professor Paşayev bu kitabında Akademik Bəkir Nəbiyevlə bir sıra beynəlxalq tədbirlərlə yanaşı, 1994-cü ildə İraqa Məhəmməd Füzulinin 500 illik yubileyinə bir yerdə getdiyini də

vurğulamışdır. Həmin uluslararası tədbirin iştirakçısı kimi qeyd etmək istəyirəm ki, Qəzənfər müəllim proqram çərçivəsində olduğumuz Bağdad, Kərbəla, Nəcəf, Kufə, Kərkük şəhərlərində özünü daha çox ev sahibi kimi aparırdı. İraqlılar onunla doğma, əziz adamları kimi görüşürdülər. Professorun burada tanımadığı ziyalı və gəzmədiyi oymaq, bölgə bəlkə də yox idi. Konfransın gedişində Qəzənfər müəllim elmi məruzəsini ərəb dilində etdi. Bəkir müəllimin Füzuli poeziyası, Azərbaycan ədəbiyyatı haqqında düşüncələri alqışlarla qarşılanırdı. O vaxt Bağdadda keçirilən silsilə tədbirləri Azərbaycan alimlərinin "açıq dərslər"i də adlandırmaq olardı. İraqda keçirilən Füzuli poeziya bayramında xüsusilə bu iki alimimiz çox fəal idi və dövlətimizi, elmimizi, mədəniyyətimizi ləyaqətlə təmsil edirdilər.

Professor Q.Paşayevin "Tarix qurub-yaradanları yaşadır", "Böyük yolun yolçusu", "Ədəbiyyatşünaslıq elmimizin təntənəsi", "Yarıməsrlik gərgin əməyin bəhrəsi" elmi məqalələri akademik Bəkir Nəbiyevin «Heydər Əliyev haqqında etüdlər», "Hərənin öz yolu var", "Heydər Əliyev və Azərbaycan ədəbiyatı", beşcildlik "Seçilmiş əsərləri" haqqında tutumlu, dolğun düşüncələr çələngi, "Ədəbiyyatşünaslıq

elmimizin patriarxı" isə böyük ustadın 80 illik yubileyi münasibətilə yazdığı səmimi ürək sözləri, dost təbrikidir.

Bəkir müəllim ilə Qəzənfər müəllim dostdur və onlar elə nadir insanlardandır ki, hissiyyatların korşaldığı zəmanədə biri-digərini yarım sözdən, işarədən, mimikadan anlaya, başa düşə bilir. Çox müşahidə etmişəm; bəzən onlar susaraq bir-birinə baxır, amma ürəkləri danışır... Maraqlıdır, onları bir-birinə yaxınlaşdıran, bağlayan xüsusiyyətlər hansılardır? Fikrimcə hər ikisi gəncliyinin çox erkən çağlarından ailə qayğısını, nəslin nüfuz və məsuliyyətini öz kövrək çiyinlərində daşımalı olublar. Maneələri dəf etmək üçün özlərində inam və cəsarət tapıblar. Həyatın dibindən cəmiyyətin yuxarı qatına, elmin zirvəsinə doğru əzablı və məşəqqətli yollar keçiblər. Xeyirxah insanların xoş sözləri ürəklərində məşəl kimi işıq saçıb. Heç kəsin onlara köməyi dəymədiyi vaxtlarda sabaha inam müdrik kəlamlarla ovxarlanıb. Cəfakeşlik, zəhmətsevərlik, düzlük, halallıq, gözü-könlü toxluq, xeyirxahlıq, nəciblik, həyat və yaradıcılıq eşqi hər ikisinin uşaqlıqdan bu günəcən ömür-gün yoldaşıdır. Onların dilində, nitqində söz urvata minir, onların qələmində söz çiçək açır. Sözün üstündə əsdikləri üçün

söz də onlardan heç nə əsirgəmir. Sözə, kəlama, kitaba məhəbbət və ehtiram bu iki alimi birləşdirən ən güclü amillərdəndir.

...Ağdaşlı Əhməd Məhəmməd oğlu 1937-ci ildə repressiya olunanda oğlu Bəkirin cəmi 7 yaşı var idi. "Xalq düşməni"nin oğluna - gənc Bəkir Nəbiyevə Stalin rejiminin tətbiq etdiyi bütün yasaqlar, məhdudiyyətlər, maneələr iflasa uğradı. O bəzən layiq olduqlarını ala bilməsə də ruhdan düşmədi, zəhməti və istedadı ilə cəmiyyət içərisində alnıaçıq gəzdi, yorulmaq bilmədən işlədi, təhsilini davam etdirdi...

Akademik Bəkir Nəbiyevin yaradıcılığında repressiya qurbanlarına, onların milli azadlıq və istiqlal ideyalarına həssas münasibət, mərhəm duyğusallıq təsadüfi deyildir. O, bu qanlı mühitin "şinel"indən çıxmış, başqalarından fərqli olaraq faciənin motivlərinə və sindromlarına daha dərindən bələd idi. Böyük alimin qəlbinə, ruhuna "bir köynək" də yaxın olan mövzuları qələmə alması təbii mənəvi ehtiyacın bəhrəsidir.

Ədəbi hadisələrə istiqamət verən, istiqlal mücahidlərinə, repressiya qurbanlarına və onların mənəvi - əxlaqi sərvətlərinə vaxtında elmi bəraət qazandıran Bəkir müəllim şübhəsiz ki, geniş erudisiyalı, cəsarətli və bəsirətli nadir

düşüncə sahibidir. Onun milli himnimizin müəlliflərindən biri - görkəmli istiqlal şairi və ictimai xadim Əhməd Cavadın yaradıcılıq yolu haqqında yazdığı monoqrafiya Azərbaycan milli müstəqilliyə qovuşduqdan sonra ilk böyük ədəbi hadisə idi və bu fundamental əsər alimin yaradıcılığında yeni mərhələ təşkil edir. Akademikin "Əhməd Cavad" monoqrafiyasını - 1937-ci ildə güllələnmiş istiqlal şairinə verilmiş ilk ən mötəbər ədəbi-elmi bəraət vəsiqəsi də adlandırmaq olar. Alimin digər istiqlal şairi Almas İldırımın yaradıcılıq yolundan bəhs edən "Didərgin şair" monoqrafiyası da elmi ictimaiyyət tərəfindən böyük maraqla qarşılanmış, kitab Türkiyə Cümhuriyyətində də yüksək tirajla nəşr edilmişdir. Bəkir müəllimin istiqlal mövzusunda Xəlil Rza Ulutürkə həsr etdiyi "İstiqlal şairi" fundamental monoqrafiyası, Məmməd Arazın 60 illiyi münasibətilə yazdığı "Şeirimizin xan çinarı" və onlarla digər əsərləri ədəbiyyatşünaslığımızda haqlı olaraq yeni ədəbi düşüncənin uğurlu nümunələri kimi dəyərləndirilmiş, alimin bu istiqamətdəki nailiyyətləri, istiqlal işığında yazıb-yaratdıqları və bütövlükdə elmi-ictimai fəaliyyəti haqlı olaraq dövlətimizin ən ali təltifinə - "İstiqlal" ordeninə layiq görülmüşdür.

Fəxarətlə vurğulanmalıdır ki, ədəbiyyatşünaslığımızın, ədəbi tənqidimizin son yarım əsrlik inkişaf mərhələləri akademik Bəkir Nəbiyevin adı ilə birbaşa bağlıdır. O humanitar nəzəri fikrin, obyektiv tənqidin qaynar nöqtələrində totalitar inkarçılıq stixiyasından uzaq, alim prinsipallığı, ləyaqətli vətəndaş mövqeyi ilə seçilən nadir şəxsiyyətlərdəndir. Bəkir Nəbiyev respubilkamızda və onun sərhədlərindən kənarda elm təşkilatçısı və ədəbiyyat tarixçisi kimi də yaxşı tanınır. Təsadüfi deyildir ki, alim gənclik illərində ilk elmi araşdırmalarına ədəbiyyat tariximizin banisi və ilk müəllimi Firudin bəy Köçərlinin həyat və yaradıcılığını tədqiq etməklə başlamışdır. Bu mövzu ona bütövlükdə Azərbaycan ədəbiyyatını mükəmməl öyrənmək və mənimsəmək imkanları qazandırdı. Mənəvi müəllimi Firudin bəy Köçərlidən estafedi ləyaqətlə qəbul edən Bəkir Nəbiyev bu gün ədəbiyyat tariximizin yaradıcılarından biri və elmi təşkilatçısıdır. Professor Yaşar Qarayevin təbirincə desək 45 il "Yaddaşda fırlanan tarix - ədəbiyyat tarixi"ni Bəkir Nəbiyev konsepsiyalar, dövrləşdirmənin meyarı və prinsipləri üzərində imitasiya xatirinə mübahisə və müzakirə açmadan, vaxt itirmədən  gerçəkliyə çevirdi. Bu sahədə yarım əsrə

yaxın durğunluqdan sonra akademik Bəkir Nəbiyevin rəhbərliyi və birbaşa iştirakı ilə hər cild 45-50 çap vərəqi həcmində olmaqla 6 cildlik “Azərbaycan ədəbiyyatı tarixi” nəşrə hazırlandı, bu gün ilk cildlər işıq üzü görüb və növbəti cildlər çap prosesindədir. Yeri gəlmiş-kən xatırladım ki, Bəkir müəllim Türkiyədə hazırlanan 30 cildlik “Türk dünyası ədəbiyyatı tarixi” kitabının da Azərbaycan üzrə əlaqələn-diricisidir.

Akademik Bəkir Nəbiyevin zəngin və çox-şaxəli elmi yaradıcılığından, fəal ədəbi- ictimai fəaliyyətindən söz açarkən onun xaricdə Azər-baycan elminin və ədəbiyyatının təbliği sahə-sindəki böyük xidmətlərini xatırlatmamaq mümküksüzdür. O, Amerikada, Danimarkada, Yunanıstanda, Yaponiyada, İranda, İraqda, Türkiyədə, Rusiyada və b. ölkələrdə müxtəlif mövzulu elmi simpoziumlarda, konfranslarda, kollekviumlarda, dünya azərbaycanlılarının qurultaylarında elmi məruzələr etmiş, əsərləri ingilis, rus, çin, ərəb, fars, türk dillərində çap olunmuşdur. Dünya azərbaycanlıları Bəkir müəllimi yaxşı tanıyır, sevir, onun elmi yaradı-cılığını diqqətlə izləyir, həmmüəllifi olduğu “Azərbaycan ədəbiyyatı” kitabından faydalanır-lar. Bu gün Azərbaycan ədəbiyyatşünaslığında

“Akademik Bəkir Nəbiyev məktəbi” fəaliyyət göstərir. Bu məktəbin məşhur yetirmələri və layiqli davamçıları var. Bəkir Nəbiyev məktəbi haqqa, həqiqətə güvənənlərin, millətini, dövlətini sevənlərin, Azərbaycan istiqlalını yaşadanların, təbliğ edənlərin, elmin, ədəbiyyatın, mədəniyyətin nüfuzu keşiyində qəlbi və qələmi ilə sərvaxt dayananların məktəbidir.

Akademik Bəkir Nəbiyev haqqında onun dostları, tələbələri, pərəstişkarları yeni-yeni kitablar, monoqrafiyalar yazıb çap etdirirlər. Professor Qəzənfər Paşayevin bu qəbildən olan yeni kitabı alimin möhtəşəm yubileyinə dəyərli töhfədir.

**...**Payız ilin bar-bərəkət fəslidir. Payız ömrün hesabat çağıdır. “Ədəbiyyatşünaslıq elmimizin patriarxı”nın səksəninci payızı da Uca Yaradana şükürlər olsun ki, sözün geniş mənasında barlı-bəhərlidir. Bu fikri ustadımızın nəşri yenicə başa çatmış beşcildlik “Seçilmiş əsərləri”, “Akademik Bəkir Nəbiyev-80” soraq kitabı, Dövlət Mükafatına layiq görülməsi və Respublika Prezidentinin yubiley ərəfəsində imzaladığı sərəncamları da təsdiq edir.

**Asif Rüstəmli**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

# NƏ YAXŞI DÜNYADA YAXŞI VAR İMİŞ...

Bəkir müəllim haqqında məmnunluqla yazdığım bu sətirlər ürəyimin dərinliyində yer almış xoşməramlı hisslərin təzahürüdür. Buna görə dünyasını dəyişmiş, yaşca məndən çox-çox böyük olan dostum Abbas Zamanova borcluyam. Bəkir müəllimlə məni Abbas müəllim tanış və yaxın etmişdi. Bu gün də bu yaxınlıqla, bu tanışlıqla fəxr edirəm. Bəkir müəllimin gərgin, dolğun və mənalı həyatı çoxlarına nümunə ola bilər. Onda yaşamaq eşqi çox güclüdür. Yaşamaq isə belə adamlar üçün yaratmaq deməkdir. Əslində, Bəkir müəllim yaşamağı yaratmaq üçün qənimət sayır. Onun çap etdirdiyi əsərlərini nəzərdən keçirdikdə inanmaq olmur ki, bir ömürdə insan bu qədər iş görə bilərmiş![1]

**1 Bax: Akademik Bəkir Nəbiyev-75. Soraq kitabı, Bakı – «Elm» - 2005, s.181-183.**

Çox səmimi, vicdanlı, son dərəcə geniş ürəkli, humanist adamdır. Rəhmətlik Abbas Zamanov deyərdi: «Mirzə Bəkir paklıq, təmizlik, saflıq mücəssiməsidir».

Mən Bəkir müəllimlə yol yoldaşı olmuşam: İraqa və Türkiyəyə 1994-cü ildə Füzulinin 500 illik yubileylərinə bir yerdə gedib-gəlmişik. Özü də İraqa səfərimiz adi səfərlərdən deyildi. Bir avtobusda İranı keçərək İraqı bütöv gəzdik və geri dönəndə də İranı başdan-başa keçərək doğma Təbrizi, Ərdəbili ziyarət etdik. İnsan yolda tanınar, - deyirlər. Mən bu səfərlər zamanı Bəkir müəllimi inamı, imanı, etiqadı olan adam kimi tanıdım. Ankarada «Bilkənd» mehmanxanasında bir yerdə qalırdıq. Səhər yuxudan oyananda da, axşam yatağa girəndə də Yaradana dua edərdi. Mən altı il müqəddəs yerlərdə yaşasam da, insandan heç nə tələb etməyən, əksinə, onun ürəyinə rahatlıq gətirən bu zəruri

adəti bəzən unuduram. Qafqaz müsəlmanları idarəsinin nəzdində yaradılmış Elmi-Dini Şuranın işində birgə fəaliyyət göstəririk. Bəkir müəllimin islami dəyərlər haqqında fikirləri bəzən yüksək savadlı din xadimlərimizi belə heyran edir. Bəkir müəllim doğrudan da qeyri-adi adamdır. Onun duzlu-məzəli söhbətlərindən, zarafatlarından doymaq olmur. Dili rəvan və şirindir. Xalq dilini gözəl bilməsi, hər cümləsində xalqın söz boxçasından yerli-yerində, məharətlə istifadə etməsi adamı heyran qoyur. İstər-istəməz həsəd aparırsan. Böyük kompozitorumuz Fikrət Əmirov vaxtilə yazırdı ki, ana laylası və milli musiqi ilə böyüyən uşağın qəlbində məhəbbət, mərhəmət, xeyirxahlıq hissləri çox güclü olar. Yəqin Bəkir müəllim ana laylası, milli musiqi ilə ərsəyə gəldiyindən xeyirxahlıq mücəssiməsinə çevrilmişdir. 1994-cü ildən Bəkir müəllimin sədr olduğu «Ədəbiyyat üzrə ixtisaslaşmış doktorluq müdafiə şurası»-

nın üzvü və 1997-ci ildən həmsədri kimi dəfələrlə onun xeyirxahlığının, mərhəmətinin, humanistliyinin şahidi olmuşam.

Xeyirxahlıq Bəkir müəllimi bir şəxsiyyət kimi ucaldır. Lakin onun xeyirxahlığı həqiqət üzərində bərqərar olmuşdur. Yaxşı yadımdadır, ədəbiyyatımızın dostu iraqlı tədqiqatçı Ə.Bəndəroğlu ilə «Nəsiminin İraq divanı» üstündə ədəbi mübahisəmiz düşəndə rəhmətlik Abbas Zamanov, Qasım Qasımzadə, Anar, Yaşar Qarayev, Ayaz Vəfalı kimi Bəkir müəllim də həqiqətin tərəfini saxladı. Mənə dayaq oldu.

Bəkir müəllimin fəaliyyətinə, xeyirxah işlərinə nəzər saldıqda şair Rasim Kərimlinin aşağıdakı misraları yadıma düşür.

***Nə yaxşı dünyada yaxşı var imiş,***
***Yoxsa məhv olardıq yaman əlində.***

Müəllimləri, dünyasını dəyişmiş

ədəbiyyatçılarımız barədə saatlarla, böyük ehtiramla danışması çox mətləblərdən, bu sadə, təvazökar insanın özünün böyüklüyündən söz açır. Gözəl alim və gözəl insan Gülrux xanım Əlibəylinin «Düşünən dünyamız» adlı çox gözəl, mən deyərdim ki, hər bir ziyalının stolüstü kitabı olmağa layiq əsərində ilk baxışda adi görünən böyük bir həqiqətdən söhbət gedir: «Tarixdə böyük şəxsiyyətlər nəsil, ailə, mühit, sevimli müəllimlərin təsirilə boya-başa çatıb məşhurlaşırlar». Bu cümləni oxuyanda nədənsə göz önünə ilk olaraq Bəkir müəllim gəldi.

Bəkir müəllimin sazı, əgər belə demək mümkünsə, milli ənənələr, islami dəyərlər üzərində köklənmişdir. O, təpədən-dırnağa millidir. Lakin millətçi deyil. Bu da Bəkir müəllimi bir çoxlarından fərqləndirən cəhətdir. O, qohum-qardaşa münasibətdə də, elə-obaya bağlılıqda da həsəd aparılası bir şəxsiyyətdir. Hətta ömrünün bu çağında belə iki-üç ayda bir

dəfə doğma Ağdaşa getməsə rahatlıq tapmaz.

Platonun sanki Bəkir müəllimin boyuna biçilmiş kəlamı vardır: «Yaxşı tərbiyə görmüş insan, yaxşı da oxuyub-oynayar». Çox adam bilmir ki, Bəkir müəllim indinin özündə belə necə gözəl oxuyur və oynayır!

Müdrik Şərqin başqa bir müdrik kəlamı da var: «Poeziya – ürəyin dərmanıdır, musiqi – vücudun».

Bəkir müəllimin ürəyi də, vücudu da bu iki möcüzəli aləmlə elə çulğalaşmışdır ki, ona həqiqi yaşını vermək olmaz. Müdriklik və kamillik dövrünün zirvəsində olan Bəkir müəllim bunu gündəlik vəzifə borcunu yerinə yetirəndə də, ictimai işlərdə də, dost-tanışla münasibətlərdə də, xeyirdə-şərdə iştirakında da bariz şəkildə göstərir.

***6.X.98***

# TARİX QURUB-YARADANLARI YAŞADIR

Bütün xalqlar görkəmli şəxsiyyətlərinin adlarını əbədiləşdirməyə həmişə böyük meyl göstəriblər. Və həmişə də bu meyl vətənpərvərlik hisslərinin artmasına güclü təkan verib. Azərbaycan xalqı istisna təşkil etmir. Babək, Nəsimi, Füzuli, Şah İsmayıl Xətayi, M.F.Axundov, C.Məmmədquluzadə, N.Nərimanov, Ü.Hacıbəyov və başqaları yada düşəndə həmişə qürur hissi keçiririk. Xalq qarşısında misilsiz xidmətlərinə görə xalqın xatirəsində əbədi yaşamaq hüququ qazananlardan, güvənc yerinə çevrilənlərdən biri də XX əsrin görkəmli dövlət xadimi, dahi şəxsiyyət Heydər Əliyevdir. Öndərimizin heykəllərinin ucaldılması, şərəfinə parklar salınması və s. çox yaxşıdır. Lakin gördüyü əzəmətli işlərin müqabilində azdır. Gündəmdə

ümummilli lilderimizin əzəmətini, möhtəşəmliyini çeşidli əsərlərlə xalqın şüurunda yaşatmaq, əbədiləşdirmək durur. Bu, hər bir ziyalının, yaradıcı adamın vicdan borcudur. Biz akademik Bəkir Nəbiyevin «Heydər Əliyev haqqında etüdlər» (Bakı, 2007) kitabına hər şeydən əvvəl bu müstəvidən baxır və qiymətləndiririk.

Azərbaycan tarixində bir epoxa olan öndərimizin müasiri olduğumdan onun səmərəli fəaliyyətini izləmək mənə də qismət olub. Haqqında məqalələr də yazmışam. Odur ki, akad. B.Nəbiyevin kitabını oxuyarkən müqayisələr aparmaq, həqiqətin tərəfində olmaq taleyimə, qismətimə düşüb. Etiraf edim ki, kitabı oxuyub başa çatanda bir rahatlıq hiss etdim. Bir daha dərindən dərk etdim ki, böyük şəxsiyyətlər barədə mötəbər sözü, böyük həyat təcrübəsi olan, dünyanın keşməkeşlərindən başı çıxan adamlar deyəndə daha mötəbər olur.

Əsərdə öndərimizlə bağlı akademik

Ramiz Mehdiyev, xalq yazıçısı Anar, xalq şairi, akademik Bəxtiyar Vahabzadə, xalq şairi Fikrət Qoca, AMEA-nın müxbir üzvü Nizami Cəfərov və başqalarının əsərlərinə ürəkaçıqlığı ilə geniş yer verilməsi deyilənlərə dayaq olur.

Bununla belə, biz heç də o təmənnada deyilik ki, dahi şəxsiyyət Heydər Əliyev haqqında yalnız mötəbər və buna mənəvi haqqı olan adamlar yaza bilərlər. Əsla yox. Heydər Əliyev elə bir abidədir ki, onun daha möhkəm, daha davamlı, daha möhtəşəm olmasında bir kərpic qoyanın da, min kərpic qoyanın da zəhməti təqdirlə yad edilməlidir. O ki, qaldı Bəkir müəllimin kitabına, çəkinmədən demək olar ki, görkəmli ədəbiyyatşünas-alimimiz bədii sözün intəhasız imkanlarından məharətlə istifadə edərək Azərbaycanın tarixi salnaməsinə qızıl hərflərlə yazılmış bu tarixi şəxsiyyətin portretini yaratmış, qədirbilən xalqımıza töhfə etmişdir.

Hər cümləsinin xüsusi çəkisi olan, böyük mətləblərdən söz açan kitabı nəzərdən keçirdikcə bir yandan müəllifin öndərimizə dərin məhəbbəti, ehtiramı, digər tərəfdən H.Əliyevin böyüklüyünü, dahiliyini göstərən məqamlar diqqəti çəkir. Səmimiyyətlə etiraf edirəm ki, kitabdan çox şey əxz etdim, qədərincə bəhrələndim.

Tarixdən məlum olduğu kimi, hər hansı bir xalqa bəla üz verəndə, Tanrı onun xilaskarını da göndərir. Elə götürək Azərbaycanımızı. XX əsrin əvvəllərində Azərbaycan bəla, faciə ilə üzləşəndə Qafqaz İslam Ordusu Azərbaycanı xilas etdi. XX əsrin sonlarında isə bu müqəddəs missiyanı Heydər Əliyev yerinə yetirdi.

Azərbaycan xalqı başının üstünü qara buludlar alanda nicat yolunu Heydər Əliyevdə gördü. Xalqın istəyi və tələbi ilə o, hakimiyyətə qayıtdı. Bu qayıdış ağrılı-acılı keçid dövründə baş verdi. Elə bir dövrdə ki, mənəvi dəyərlər tapdanır, xalq

üzüntülərlə üzləşir, adamlar arasında ruh düşgünlüyü baş alıb gedirdi. Öndərimizin qaydışı xalqın gələcəyə ümidini, sabaha inamını artırdı, mənəviyyatın tərəqqisinə xidmət etdi. Milli dirçəlişimizin sarsılmaz təməli məhz onun qayıdışı ilə qoyuldu. Heydər Əliyevin titanik zəhməti sayəsində ölkə daxilində sabitlik bərqərar oldu. O, ölkəni vətəndaş müharibəsi təhlükəsindən, ictimai-siyasi xaosdan xilas etdi. Demokratiya və hürriyyət pərdəsi altında öz məkrli niyyətlərini həyata keçirmək naminə ölkəni hərc-mərcliyə sürükləyənlərin qarşısını aldı, tariximizə xilaskar kimi daxil oldu.

İlahi ona müəllifin göstərdiyi kimi, bitib-tükənməyən enerji bəxş etmişdi. Xalqın xoşbəxtliyi ondadır ki, H.Əliyev ilahidən gələn bu enerjini bədxahlarının arzusuna xilaf çıxaraq Azərbaycan xalqının gələcəyi naminə sərf etmişdir.

Dövlətçiliyimiz tarixində müstəsna yeri olan öndərimiz uzaqgörən siyasətçi

idi. Dünya siyasətçiləri arasında öncül yerlərdən birini tuturdu. Ali səviyyəli yığıncaqlarda həmişə ən böyük dövlətlərin başçılarının əhatəsində olardı. Əslində dünya siyasət meydanında cərəyan edən proseslərə təsir göstərər, bir sıra dövlət başçıları onun məsləhətlərinə ehtiyac duyardılar. Bu isə siyasətçidən yüksək dərəcədə müdriklik tələb edir. Axı, siyasət də yüksək gərginlikli cərəyana bənzəyir. Kiçik bir səhv, ehtiyatsızlıq arzuedilməz nəticələrə gətirib çıxara bilər. Heydər Əliyev zəkası, müdrikliyi Azərbaycana bütün dünyada layiqli yer qazandırmışdır. Ümummilli liderin səyi nəticəsində ölkəmiz siyasi blokadadan çıxaraq beynəlxalq aləmdə tanınmağa, mötəbər məclislərdə sözü eşidilməyə, Azərbaycanın nüfuzunun artmasına nail olmuşdur.

Bəkir müəllim öndərimizlə bağlı faktları zərgər dəqiqliyi ilə elə seçir, elə məharətlə təqdim edir ki, hər məqamda

özün üçün bir yenilik hasil edirsən. Həcc ziyarətinə gedərkən Heydər Əliyevin təyyarədə akad. Ziya Bünyadov və akad. Bəkir Nəbiyevi öz odasına dəvət edərək islami dəyərlərdən söhbət açdığı səhnə nə qədər düşündürücüdür. Öndərimizin iman sahibi olduğunu göstərən bu səhifələri həyəcansız oxumaq olmur. Və bundan sonra onun islami dəyərləri yüksək qiymətləndirməsini, məscidlərə ciddi fikir verməsini, dini təhsil ocaqlarının tikilməsinə qayğı göstərməsini, din xadimlərinə, xüsusən də Şeyxülislam Allahşükür Paşazadəyə münasibətini, dini bayramlarda məscidləri ziyarət etməsini daha yaxşı başa düşmək olur.

Əsərin böyük bir hissəsində müəllif dilimiz, elmimiz, ədəbiyyatımız, incəsənətimiz, ümumiyyətlə, mədəniyyətimizlə bağlı öndərimizin gördüyü misilsiz işlərdən söz açır.

Bəkir müəllim xüsusi vurğulayır ki, Heydər Əliyevin ən böyük xidmət-

lərindən biri yaradıcı adamları, xüsusən də yazıçı və şairləri başqalarının dəyirmanına su tökən bədxahlardan qorumaq oldu. Söz-sənət adamlarını bir-birinə qarşı qoyanlar deyirdilər ki, nə üçün Hüseyn Cavid, Seyid Hüseyn, Əhməd Cavad, Mikayıl Müşfiq və s. repressiyaya məruz qalıblar, amma başqaları yox? Liderimiz belə yanlış və ziyanlı yanaşma üsulunu nəinki qəbul etmədi, bunun yolverilməz olduğunu əməli işində göstərdi. Xalq qarşısında böyük xidmətləri olan S.Rüstəm, R.Rza, M.İbrahimov, S.Rəhimov, eləcə də musiqi mədəniyyətimizin görkəmli simaları Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Rəşid Behbudovun o zamanın ən yüksək fəxri adına – Sosialist Əməyi Qəhrəmanı adına layiq görülməsinə nail oldu. Xalqın layiqli oğul və qızlarına, yazarlara, incəsənət xadimlərinə fəxri adların verilməsi, onların yubileylərinin ən yüksək səviyyədə keçirilməsi milli ruhun, milli

özünüdərkin yüksəlişi, tarixin yaddaşının özünə qaytarılması yolunda əvəzsiz xidmət idi.

Kitabda öndərimizin şəxsi təşəbbüsü və ciddi səyləri nəticəsində 1981-ci ildə yazıçıların VI qurultayının gündəliyinə ilk dəfə olaraq Cənubi Azərbaycandakı ədəbi proses barədə məruzənin salınmasından, Yazıçılar İttifaqında Cənubi Azərbaycan Ədəbiyyatı problemləri üzrə katibliyin, eləcə də Nizami adına Ədəbiyyat İnstitutunda Cənubi Azərbaycan Ədəbiyyatı şöbəsinin yaradılmasından, «Ədəbiyyat qəzeti»ndə və radioda «Cənubdan səslər» rubrikası altında cənublu yazıçı və şairlərə geniş yer verilməsindən bəhs edilir.

Sovet dönəmində belə bir addım böyük cəsarət tələb edirdi. Bu, ədəbiyyatımıza və xalqımıza sonsuz məhəbbətin sayəsində mümkün olmuşdur. Az sonra 1982-ci ildə Heydər Əliyev SSRİ-də görünməmiş, böyük cəsarət və məsuliy-

yət tələb edən başqa bir tarixi addım atdı. H.Cavidin nəşi Sibirdən – sürgün məzarlığından gətirilib Naxçıvanda torpağa tapşırıldı. Məqbərənin açılışı mərasimində bunu özü etiraf etdi: «Bu, böyük iradə, cəsarət tələb edirdi. Ancaq xalqımıza, millətimizə, tariximizə, mədəniyyətimizə, ədəbiyyatımıza, mənəviyyatımıza olan məhəbbət və sədaqət mənə belə bir cəsarət göstərməyə imkan verdi. Mən bunu etdim».

Bilənlər bilir ki, rəhbərimizin bu məhəbbəti heç vaxt tükənmədi.

Ağır vaxtlarda «Azərbaycan», «Ulduz», «Qobustan», «Literpturnıy Azerbaydjan» jurnalları, «Ədəbiyyat qəzeti» öndərimizin təşəbbüsü ilə Dövlət büdcəsindən ödənilən dotasiya ilə çıxıb. Moskvada çox yüksək vəzifədə çalışanda belə «Ədəbiyyat qəzeti»nin hər sayını diqqətlə oxuması, onun ədəbiyyatımıza olan məhəbbətindən, ədəbi prosesə ciddi diqqət yetirməsindən xəbər verirdi.

Ümummilli liderimiz klassik ədəbi irsə də böyük qayğı göstərirdi. O, keçən əsrin 70-ci illərində Nizami və Nəsiminin öyrənilməsi, nəşri və təbliği barədə qərarlar qəbul etdirmişdi. Nəsiminin 600 illik yubileyinin təkcə Azərbaycanda (1974) deyil, dünya miqyasında keçirilməsi də onun səyi nəticəsində baş tutmuşdu. Yeri gəlmişkən, Nəsimi dünya miqyasında yubileyi qeyd edilən ilk azərbaycanlı şair olub. Şairin əsərlərinin 3 cildliyinin, eləcə də Füzulinin 6 cildliyinin akademik nəşri ədəbiyyatşünaslıq elmimizin tarixində əlamətdar hadisə idi.

Akad. Bəkir Nəbiyevin maraqlı kitabında öndərimizin Nizami, Nəsimi, Füzuli, M.F.Axundov, S.Vurğun, Şəhriyar, Aşıq Ələsgər və başqa görkəmli şəxsiyyətlərin yubileylərinin keçirilməsi, ev-muzeylərinin yaradılması (S.Vurğun, H.C.Cavid, C.Məmmədquluzadə və b.), 10 cildlik Azərbaycan Sovet Ensiklopediyasının və AMEA-nın Folklor İnsti-

tutunun yaradılması, ümumiyyətlə, mədəniyyətimizin inkişafı, milli-mənəvi dəyərlərimizin qorunması yolunda atdığı səmərəli addımlar, gördüyü vüsətli işlər qədirşünaslıqla gündəmə gətirilir. Bu da təbiidir ki, «Kitabi Dədə-Qorqud–1300» və «Füzuli–500» yubiley tədbirləri də məhz onun xeyir-duası, rəhbərliyi və fəal iştirakı ilə həyata keçirilmişdir.

«Füzuli–500» yubileyi Azərbaycan, Türkiyə, İraq, İran və Gürcüstanda, eləcə də Fransada YUNESKO-nun Baş qərargahında (Paris) və s. keçirilmişdir. İlk dəfə olaraq şairin 6 clddə əsərləri çap olunmuşdur.

Maraqlıdır ki, Heydər Əliyev yubiley komissiyasının sədri olaraq Türkiyədə keçirilən «Füzuli–500» yubiley tədbirlərinə qoşulmaq üçün Azərbaycanın tanınmış ədəbiyyat və incəsənət nümayəndələrini Ankaraya öz təyyarəsində aparmışdı.

Bu, bir daha öndərimizin ədəbiyyatı-

mıza, mədəniyyətimizə dərin məhəbbətindən, sözü ilə əməlinin üst-üstə düşməsindən xəbər verirdi.

Biz hələ H.Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Bakının görkəmli yerlərində İ.Nəsiminin, M.Füzulinin N.Nərimanovun, H.Cavidin, C.Cabbarlının, S.Vurğunun və b. əzəmətli heykəllərinin ucaldılmasını demirik. O, bu müqəddəs işi görərkən düşünmürdü ki, bununla qədirbilən xalqımızın qəlbində öz heykəlini əbədi ucaldır.

Kitabda xüsusi vurğulanır ki, ümummilli liderimiz nüfuzlu dövlət xadimi kimi türk dilli xalqların birliyi yolunda əvəzsiz işlər görüb. Onların yaxınlaşmasına xidmət edən latın qrafikasına keçid də onun səyi nəticəsində həyata keçirilib. Heydər Əliyevin tarixə keçən «Bir millət, iki dövlət» kəlamı isə Türkiyə və Azərbaycan dövlətlərinin fəaliyyətində istiqamətverici amil olub.

Kitabda ulu öndərimizin layiqli

davamçısı, onun yaradaraq əmanət qoyduqlarının qarantı, axıra çatdıra bilmədiyi taleyüklü məsələləri, planları, quruculuq işlərini yorulmaq bilmədən yerinə yetirən möhtərəm prezidentimiz İlham Əliyevdən də qədərincə bəhs edilir. Görülən vüsətli işlər bir daha təsdiq edir ki, gənc, lakin müdrik prezidentimiz ölkəni irəli aparmaq, inkişaf etdirmək iqtidarındadır, o, buna qadirdir. Prezidentimizin elmimiz, ədəbiyyatımız və dilimizin inkişafı yolunda atdığı addımlar kitabda kifayət qədər əksini tapır. Onun milli, mənəvi və dövlətçilik əhəmiyyəti daşıyan sərəncamları «Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında» və «Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında» tarixi sənədlər kimi qiymətləndirilir. Həqiqətən də möhtərəm prezdentimiz fəsadlarla, aşınmalarla dolu olan qloballaşma ilə üz-üzə gəldiyimiz zəmanəmizdə milli xüsusiy-

yətlərimizin saxlanılmasında ana dili və ədəbiyyatımızın başlıca amillərdən olduğunu həmişə ön plana çəkib: «Çünki bizi millət kimi qoruyub saxlayan məhz dilimiz, ədəbiyyatımız, tariximiz, ənənələrimizdir» – deyib.

Kitabda möhtəşəm prezidentimiz İlham Əliyevin ümummilli liderimizin kursunu zamanın tələblərinə uyğun, yaradıcı şəkildə davam etdirməsi xüsusi vurğulanır.

Akademik Bəkir Nəbiyevin son dərəcə maraqlı kitabını oxuyub qurtaranda qəlbimə xalq qarşısında misilsiz xidmətləri olan, müasir Azərbaycanımızı qurub-yaradan, xalqın qəlbində əbədilik qazanan öndərimizin peyğəmbərcəsinə dediyi kəlamı hakim kəsildi: «Tarix və bəşəriyyət həmişə quranları, yaradanları qiymətləndirir».

# BÖYÜK YOLUN YOLÇUSU

Akademik Bəkir Nəbiyevin yeni kitabı belə adlanır: «Hərənin öz yolu var…». Müəllif əsəri Allahın adı ilə başlayır. Qurani Kərimin «Bəqərə» surəsinin 117-ci ayəsini yada salır, sözün qüdrətindən söz açır. Bəşər övladının, bir növ, söz yaradıcılığı ilə Yaradanın qüdrət və əzəmətini ən kiçik miqyasda təkrar etmək, sözün qüdrəti ilə əbədiyyət qazanmaq naminə əbədi bir yaradıcılıq növünə – ədəbiyyata müraciət etdiyini xüsusi vurğulayır.

Danılmaz həqiqətdir ki, insanı dəyişən, dünyanın əşrəfinə çevirən, hər şeydən əvvəl, sözdür. İnsan söz sənətini – ədəbiyyatı yaratmış, ədəbiyyat və yalnız insana xas olan zehni əmək isə onu kamilləşdirmiş, əlçatmaz mərtəbəyə ucaltmışdır.

Həqiqətən də insan şəriət, təriqət, mərifət həqiqət adlanan və kamil insanı şərtləndirən hədləri sözün qüdrəti ilə fəth etmişdir.

Akademik haqlı olaraq qeyd edir ki, ədəbiyyatın bu işdə rolu ölçüyəsığmaz-dır. Bu baxımdan, Bəkir müəllim şüurlu həyatını ədəbiyyata həsr etdiyindən məmnunluq duyur və böyük Yaradana minnətdarlığını izhar edir. Fəlsəfi düşün-cələrlə başlayan «Hərənin öz yolu var…» (*Bakı, 2008, 466 səh.*) əsəri axıra kimi insanı düşünməyə sövq edir.

İctimaiyyət, xüsusən də ziyalılar yaxşı bilir ki, Bəkir müəllim Yaradanın əta etdiyi həyatının mənasını yazıb-yaratmaqda görür. Uzun ömür payı və istedadı sayəsində ədəbi prosesə, klassik ədəbi irsə, ədəbi tənqidə, ədəbi əlaqələrə, poeziyada sənətkarlıq məsələlərinin tədqiqinə 50-dən artıq irili-xırdalı san-ballı kitab, doqquz yüzə yaxın məqalə və resenziya həsr edən alim nəinki Azərbay-

canda, keçmiş Sovetlər Birliyi ölkələrində, eləcə də Türkiyə, İran və İraqda görkəmli ədəbiyyatşünas kimi tanınır.

Şübhəsiz, buna görədir ki, Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı kimi şərəfli fəxri adlara layiq görülmüş, Sovet dönəmində, xüsusən də Azərbaycan müstəqillik əldə edəndən sonra əməyi yüksək qiymətləndirilmiş, «Xalqlar dostluğu», «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir.

Hazırda akademik Bəkir Nəbiyev altı cildlik «Azərbaycan ədəbiyyatı tarixi» adlı fundamental əsərin baş redaktoru, Azərbaycanın Milli Ensiklopediyasının relaksiya heyətinin sədr müavini, AMEA-nın müşaviri, AMEA Nizami adına Ədəbiyyat İnstitutunun direktoru, həmin institutun nəzdində Dissertasiya Şurasının sədridir. Neçə-neçə doktorluq əsərlərinin elmi məsləhətçisi, namizədlik dissertasiyaları üzrə aspirant və dissertantların elmi rəhbəridir. Ümumiyyətlə,

ədəbiyyatşünaslıq üzrə yüksək ixtisaslı kadrların yetişdirilməsində xidmətləri böyükdür. Rəhbərliyi ilə 25 nəfər tədqiqatçı dissertasiya müdafiə etmişdir.

Bu qədər vəzifə borcunu və yaradıcılıq işini yerinə yetirmək təbii ki, ədəbiyyatımızı və xalqımızı sonsuz məhəbbətlə sevən, bitib-tükənməyən istəklə yazıb-yaradan qələm sahiblərinin payına düşə bilər. Həqiqətən də bu sayda tədqiqat işini ömrünü bütövlükdə ədəbiyyatşünalıq elmimizə həsr edən, onun patriarxı adını qazanan, öz elm sahəsində böyük nüfuz sahibi olan bir alim edə bilərdi. Qəribədir ki, ömrünün ən müdrik çağlarını yaşayan alimin tədqiqatları son illərdə kəmiyyət baxımından daha da artmışdır. Hələ başa çatmamış təkcə 2008-ci ildə akademikin ədəbi prosesə aid 15 sanballı məqaləsi, iki kitabı çıxmışdır.

Alimin tədqiqat laboratoriyasının genişliyi, təfəkkürünün dərinliyi barədə

təsəvvür yaratmaq amacilə onlardan bəzisini burada qeyd etməyi lazım bildik: «Uğurlu illərin sorağı». Məqalə alimin V.Andriyanovla H.Mirələmovun Moskvada böyük tirajla çap olunan «İlham Əliyev» kitabı haqqında düşüncələrinə həsr olunmuşdur. «Milli Ensiklopediya azərbaycançılıq ideologiyasının daşıyıcısıdır», «Təbiət vurğunu, el ağsaqqalı» (akad. H.Əliyev), «Müəllimim haqqında notlar» və «Fədakar alim» (prof. Mir Cəlal), «Haqqa çağıran şair» (M.Şəhriyar), «Vüqarlı, əzəmətli» (İ.Şıxlı), «Azərbaycan ədəbiyyatının Anar fenomeni», «Təfəkkürün dərinliyi, tədqiqatın təzəliyi (T.Salamoğlu), «O gənclik çağlarında da müdrik idi» (prof. Yavuz Axundov), «Uşaq ədəbiyyatımızın xanım anası» (Xanımana Əlibəyli) və s. mətbu orqanlarda, əsasən də «Ədəbiyyat qəzeti»ndə çıxmış və «Hərənin öz yolu var…» kitabına daxil edilmişdir.

Yeri gəlmişkən, hər il, bir qayda

olaraq, Bəkir müəllimin ən azı bir kitabı işıq üzü görür. Bu il çap olunmuş «Hərənin öz yolu var….» onlardan biridir. Əsər altı cildlik «Azərbaycan ədəbiyyatı tarixi»nə AMEA-nın müxbir üzvü Teymur Kərimli ilə müştərək yazılan «Azərbaycan ədəbiyyatının ilk müfəssəl tarixi» məqaləsi ilə başlanır. Bu çox maraqlı məqalədə ədəbiyyat tarixinə ekskurs edilir, «Poetika» əsərinin müəllifi Aristoteldən başlamış dünya söz nəhənglərinə nəzər salınır, bəşər tarixində ədəbiyyatın, o cümlədən də Azərbaycan ədəbiyyatının yeri və rolu dəyərləndirilir. Məqalədə xüsusi vurğulanır ki, Qərb mədəniyyəti televiziya və internet vasitəsi ilə həyatımıza nüfuz etdiyi, qaçılmaz olan qloballaşma mənəvi dəyərlərimizə bəzən sarsıdıcı təsir göstərdiyi, onu müəyyən aşınmalara məruz qoyduğu zəmanəmizdə mənəvi-əxlaqi dəyərlərimizi qorumaq kimi müqəddəs tarixi missiyanı yerinə yetirməyə qadir bir bədii-intelektual

qüvvə varsa, o da xalqa bağlı milli ədəbiyyatdır.

Bu fikir möhtərəm prezidentimiz İlham Əliyevin tarixi sözləri ilə səsləşir.

Prezidentimiz fəsadlarla, aşınmalarla dolu olan qloballaşma ilə üz-üzə dayandığımız zəmanəmizdə milli-mənəvi dəyərlərimizin qorunub-saxlanılmasında ana dili və ədəbiyyatımızın başlıca amillərdən olduğunu zərgər dəqiqliyi ilə göstərmişdir: «Çünki bizi millət kimi qoruyub-saxlayan məhz dilimiz, ədəbiyyatımız, tariximiz, ənənələrimizdir».

İri həcmli «Hərənin öz yolu var…» kitabı bir neçə bölməyə ayrılıb: Məqalələr, portret cizgiləri, məruzə və çıxışlar, fikir və duyğu yarpaqları, vida sözləri və s.

«Məqalələr» bölməsində «Heydər Əliyev haqqında etüdlər», «Ədəbiyyat tariximizin yeni cildləri», «Azərbaycanın ədəbiyyat elmi mühacirətdə», Şahin Fazilin poeziya yaradıcılığına həsr edilən «Şahinin qanadları», Çingiz Əlioğludan

bəhs edən «Atlantlar», yaxud cəfakeşliyin poeziyası», «Ədəbiyyat fəlsəfəsinin tədqiqi» kimi bir-birindən maraqlı məqalələr vardır. Onların arasında öndərimizə həsr olunmuş məqalə xüsusilə fərqlənir.

Azərbaycan tarixində epoxa olan öndərimiz haqqında akademikin məqaləsini oxuyanda, ümummilli liderimiz haqqında bir yazımda göstərdiyim kimi, bir daha qəti qənaətə gəldim ki, böyük şəxsiyyətlər haqqında mötəbər sözü buna mənəvi haqqı olan, elmi, biliyi, təfəkkürü, həyat təcrübəsi ilə seçilən, ictimaiyyət arasında nüfuza malik şəxslər deyəndə daha mötəbər olur. Bəkir müəllim bu qeyri-adi yazısında bədii sözün intəhasız imkanlarından məharətlə istifadə edərək öndərimizin ədəbiyyat, incəsənət və mədəniyyət xadimləri ilə bağlı misilsiz xidmətlərindən, ədəbiyyatımız, incəsənətimiz, ümumiyyətlə mədəniyyətimiz naminə gördüyü vüsətli işlərdən söz açmış, bu tarixi şəxsiyyəti yaddaşlarda

yaşadacaq əsər yazmışdır.

«Hərənin öz yolu var…» kitabının «Portret cizgiləri» adlanan bölməsində: «Müstəqilliyimizin şair qurbanı» (Ə.Cavad), «Ömür karvanı talan oldu» (M.Müşfiq), «Musiqi elmimizin yorulmaz tədqiqatçısı» (Z.Səfərova), «Hərənin öz yolu var…» (H.Mirələmov), «O, çox şeyə vaqifdir» (V.Arzumanlı), «Alim haqqında dost sözü» (Q.Paşayev) adlı orijinallığı və fikir dərinliyi ilə seçilən, adı çəkilən qələm sahiblərinə həsr olunan məqalələr yer alır.

«Fikir və duyğular» adlanan bölmədə «Sevimli müəllimimin əziz xatirəsinə» (prof. Əli Sultanlı), «Fəlsəfə elmimizin patriarxı (akad. Fuad Qasımzadə), «Nakam tənqidçi (f.e.n. Əhəd Hüseynov), «Ünsiyyət elmləri doktoru» (xalq şairi Nəriman Həsənzadə), «Uzaqları yaxın edən sənətkar» (Alim Qasımov) kimi məqalələr xalq qarşısında xidmətləri olan şəxsiyyətlərin yaradıcılığından bəhs

edir.

Kitabda «Məruzə və çıxışlar» başlığı altında toplanmış yazılar on yeddi sanballı məqalədən ibarətdir. Bu yazılar çox mətləblərdən söz açır: «Məhəbbət və fədakarlıq» (Salman Mümtaz), «İlmələrin şeriyyəti» (Lətif Kərimov), «Əlyazmalar səltənətinin sultanı» (Cahangir Qəhrəmanov), «O, vətənə qayıtdı» (Almas İldırım), «Kamança da insan kimi danışarmış» (Habil Əliyev), «Şeyxülislamlığın iyirmi beş ili» (Hacı Allahşükür Paşazadə), «Hələ sənin nə vədəndi» (Fikrət Qoca) belələrindəndir.

Kitabda «Vida sözləri» başlıqlı bölmədə xalq yazıçı Hüseyn Abbaszadə, xalq şairləri Qabil, Məmməd Araz və başqalarına həsr olunmuş, alimin ürək yanğısı ilə qələmə alınmış yazıları həyəcansız oxumaq olmur.

Akademikin ömür-gün yoldaşı Ədalət xanıma ithaf etdityi kitaba, göründüyü kimi, ədəbiyyatşünaslıq elmimizin gün-

dəmdə olan problemlərinə, alim və yazıçıların yaradıcılığına, ictimai və mədəniyyət xadimlərinə, alimin dünyasını dəyişmiş müəllimlərinə, qələm dostlarına həsr olunmuş məqalələri, resenziyaları, məruzələri daxil edilmişdir.

Kitabın redaktoru, ədəbiyyatşünas-alim Nikpur Cabbarlı əsərə səmimi son söz yazmış, akademikin iş üsulu və araşdırıcılıq səriştəsindən söz açmışdır.

Akademik Bəkir Nəbiyevin son dərəcə maraqlı və ədəbiyyatşünaslıq elmimiz üçün gərəkli olan «Hərənin öz yolu var…» kitabı bütövlükdə mənəvi-əxlaqi dəyərlərimizin unudulmaması, qorunub-saxlanması kimi müqəddəs bir işə xidmət etdiyindən böyük dəyər kəsb edir.

*«Ədəbiyyat qəzeti»,*
*10 oktyabr 2008-ci il.*

## TARİXİ SƏFƏRİN BƏHRƏSİ

Elə adamlar var ki, onlarla təmasda olmaqdan, düşündürücü kəlamlarından, səmimiyyətindən, ziyalı nəcibliyindən doymursan. Onlardan biri, bəlkə də birincisi akademik Bəkir Nəbiyevdir.

Tale elə gətirib ki, Bəkir müəllimlə iki dəfə İraqa, İrana və Türkiyəyə, sonuncu dəfə isə Suriyaya (10-17 noyabr 2008-ci il) səfər etmişəm. Yeməyə Allahın adı ilə başlaması, dualarla bitirməsi nəinki bizim, hətta yerlilərin belə diqqətindən yayınmır, buna görə ona xüsusi ehtiram göstərirdilər. Təsadüfi deyildir ki, Sovet quruluşunun süqutundan sonra o, həccə gedən ilk azərbaycanlılardan biridir. Onun Məkkə ziyarətinə ümummilli liderimiz Heydər Əliyevin Prezident təyyarəsində getməsi özü də çox mətləblərdən söz açır. Həm xalq, həm də

dövlət qarşısında böyük ehtiram qazanmaq Bəkir müəllim kimi əməlisaleh, imanlı adamlara qismət olur. O, buna nəcabəti, ləyaqəti, xeyirxahlığı, vətənpərvərliyi, müdrikliyi ilə nail olmuşdur.

Adam çox oxuduqca, çox bildikcə dərk edir ki, az bilir. Bəkir müəllimlə təmasda olanda da çoxlarımız bu hissi keçiririk. Baxmayaraq ki, Suriyaya birgə səfər etmişdik, alimin «Nəsimi kəlamının işığında» adlı həcmcə kiçik, məna tutumuna görə böyük olan əsərini oxuyanda da eyni hissləri keçirdim.

Suriyaya səfərimiz əhəmiyyətinə görə yalnız Füzulinin 500 illik yubileyi münasibəti ilə İraqa və Türkiyəyə (ələlxüsus da İraqa!) səfərlərimizlə müqayisə edilə bilər.

Cəmisi 40 il bundan əvvəl xalq şairi Rəsul Rzanın Nəsiminin biz azərbaycanlılar üçün üzə çıxardığı qərib məzarını ziyarət edərkən keçirdiyimiz həyəcanlı anları təsvir etməkdə söz acizdir.

Dünyanın bir çox ölkələrində olmuş, dünya görmüş akademik Bəkir Nəbiyev də həyəcanlarını cilovlaya bilmirdi. Şairin məzarı başında fatihə oxuyanda göz yaşları nurlu sifətində mirvari kimi sıralanmışdı. Müəllifin «Nəsimi kəlamının işığında» əsərində həmin səhnə elə təsvir edilib ki, oxuyanda həmin anları yenidən yaşadım. Bu, çox da böyük olmayan kitabda Nəsimi, onun qərib məzarı, Hələb və ümumiyyətlə Suriya haqqında zəngin məlumatlarla bərabər, o qədər maraqlı fikirlər, alimi düşündürən məsələlər var ki, oxuduqca oxuyur, biliyini zənginləşdirir, dünyagörüşünü artırırsan.

Taledən gələn qismətdir ki, ömür payımda bir çox ölkələrdə olmuş, qeydlər aparmış, vətənə dönəndən sonra səfər qeydlərimi, eləcə də kitablar çap etdirmişəm. Səfərlər zamanı yol yoldaşlarımı müşahidə etmişəm. Bəkir müəllim qədər hər şeylə maraqlanan, yorulmadan

qeydlər aparan, məntiqi nəticələr çıxaran az adama təsadüf etmişəm. Onun yol yoldaşlığı qanan üçün əvəzsiz bir məktəbdir. Deyilən hər bir sözün Bəkir müəllim üçün öz mənası, hər bir fikrin xüsusi çəkisi vardır. Səfər zamanı onun bu keyfiyyəti bir daha bariz şəkildə özünü göstərdi. Bəkir müəllim adidən aliyə bütün danışıqlara, söhbətlərə diqqətlə qulaq asır, yeri gəldikcə nümayəndə heyətinin rəhbəri səlahiyyətindən istifadə edərək söhbətə qarışır, onu daha da mənalandırırdı. Məsələn, Nəsiminin məqbərəsini ilk dəfə ziyarət edəndən sonra Hələb valisinin müavini, cənab Məhəmməd Kaccah hamı ilə bir-bir əl tutub salamatlaşanda hərə ona bir cür təşəkkürünü bildirirdi. Mənim növbəm çatanda dedim: «Möhtərəm müşavir, dünyada böyük şəxsiyyətlər çox olub. Makedoniyalı İskəndər daxil olmaqla onların çoxunun qəbri itib, yoxa çıxıb. Nəsimi isə Allahın kəraməti ilə 600 ilə

yaxındır ki, Hələb şəhərinin mərkəzində uyuyur. Onu siz qoruyubsunuz. Buna görə biz Suriya dövlətinə, suriyalılara minnətdarıq».

Bəkir müəllim o saat əlavə etdi: «Ələlxüsus da hələblilərə!»

Əslən hələbli olan, Hələb tarixinə, memarlığına dair neçə-neçə kitablar yazmış müşavirin məmnunluğunu təsvir etməkdə çətinlik çəkirəm. Dünya görmüş, yorğun görkəmli müşavir Bəkir müəllimin sözlərindən sanki cavanlaşdı, yorğunluğu bir anda qeyb oldu. Bir daha özüm üçün kəşf etdim ki, yerində deyilmiş söz dava-dərmandan əfzəl imiş!

Burada akademikin kitabını şərh etməkdən uzağam. Təkcə onu demək istərdim ki, «Şəhid şairin qərib məzarı önündə», «Nəsimi obrazının prototipi», «Valinin görüşündə», «Beynəlxalq konfransda dediklərimiz və eşitdiklərimiz», «Müftinin üzrxahlığı», «Suriya Ensiklopediyası ölkəmiz haqqında», «Dəməşq

Universitetinin vüsəti», «Yazıçılar Birliyində», «Suriya Milli Muzeyinin salonlarında», «Paytaxtla vidalaşırıq», «Hələbdə iki qala var» kimi bir-birindən maraqlı fəsilləri içinə alan «Nəsimi kəlamının işığında» əsəri «Ədəbiyyat qəzeti»ndə (*5.XII-12.XII.2008*) çap olunandan sonra böyük oxucu marağına səbəb oldu və «Elm», «Nəbz» və «Ağdaş» qəzetləri də alimin səfər qeydlərinin tam mətnini dərc etdilər. Məlumdur ki, qəzetlərin fiziki ömrü nisbətən gödək olur. Bəzən lazım olan materialı onlarda axtarıb-tapmaq çətinlik törədir. Odur ki, gələcəkdə hər hansı bir münasibətlə bu yol qeydlərinə müraciət etmək istəyənlərin işini asanlaşdırmaq üçün bu kitabı nəşr etməyi məqsədəuyğun saydıq. Etiraf edilməlidir ki, bu əsər tarixdə qalacaq bir səfərin bəhrəsidir. Bu səfərin belə mənalı və xalqımız üçün əhəmiyyətli olmasında Suriyadakı səfirimiz Mahir Əliyevin zəhmətini qeyd etməmək ən azı

insafsızlıq olardı.

Onu da deyim ki, biz akdemikin Çin, Yaponiya, ABŞ, Yunanıstan kimi ölkələrdən qələmə alınmış zəngin səfər qeydlərini də toplayıb bu kitabda verə bilərdik. Kitab çox da maraqlı alınardı. Lakin dahi Nəsimiyə ümumxalq məhəbbətini, gənc tədqiqatçıların marağını nəzərə alaraq alimin ikisi rusca, biri isə azərbaycanca olan yazısını əlimizdəki kitabçaya əlavələr şəklində təqdim etməyi üstün tutduq. «Всё о Насими» məqaləsində Akademiyanın Nizami adına Ədəbiyyat muzeyində Nəsiminin 600 illiyi münasibətilə açılmış fundamental sərginin çox zəngin ekspozisiyası barədə ətraflı məlumat verilir. Sərginin elmi-ekspozisya planının müəllifi Bəkir müəllim özü idi.

1973-cü ildə AEA-da Nəsiminin yubileyi münasibətilə rus dilində «Насими» adlı bir kitab hazırlamışdı. Dahi şair haqqında görkəmli alimlərin yazmış

olduqları məqalələrin ən yaxşılarından ibarət olan bu kitabın tərtibi o zaman Nizami muzeyinin direktoru olan B.Nəbiyevə həvalə edilmişdi. Tərtibçi kitaba Nəsimi yaradıcılığının əsas motivlərinin yığcam təhlilindən ibarət bir müqəddimə yazmış və xüsusi vurğulamışdı ki, Azərbaycan şairinin yubiley təntənələri YUNESKO-nun qərarı ilə bütün dünyada qeyd olunur.

Sonuncu yazı 2005-ci ildə Şamaxı şəhərində Nəsimi abidəsinin açılışında söylənmiş müxtəsər sözdür. Həmin tədbirdə Azərbaycan Respublikasının prezidenti möhtərəm İlham Əliyev cənabları da iştirak etmişdir. Bu barədə ətraflı məlumat «Ədəbiyyat qəzeti»nin 29 aprel 2005-ci il tarixli sayında dərc olunmuşdur.

Hörmətli oxucular!

Akademik Bəkir Nəbiyevin «Nəsimi kəlamının işığında» əsərində azərbaycanlı oxuculara və tədqiqatçılarımıza məlum olmayan həqiqətlər, məlumatlar yetərincədir. Bu kitabdan öyrənəcəksiniz

ki, ermənilərin sayının Suriyada çox olmasına baxmayaraq, Suriya Milli Ensiklopediyasına yol tapa bilməyiblər. Ensiklopediyada doğru olaraq göstərilib ki, ermənilər Azərbaycana, o cümlədən də onun ayrılmaz hissəsi Qarabağa İran və Türkiyədən köçüb gəliblər. Başqa bir misal. Biz bilirdik ki, Suriyalı alimlər Nəsimi ilə bağlı müəyyən tədqiqatlar aparıb, məqalələr yazmışlar. Lakin bu səfər zamanı akademik Bəkir Nəbiyevin Əbdülfəttah Rəvvas Qələçinin sanballı «Hələb Yaqutu İmadəddin Nəsimi: həyatı (1771-820 h.), poeziyası və fəlsəfi fikirləri» adlı kitabını əldə etməsi elm aləmimiz üçün yenilikdir. Əsərdə bu kitabın əhəmiyyətindən də bəhs edilir. Maraqlıdır ki, Suriya Milli Ensiklopediyası prezidentinin müavini professor Nəbil əl-Həffarın məlumatına görə 2006-cı ildə Əbdülfəttah Qələçinin həmin əsəri «Şərafətli hökmdar» adı ilə səhnələşdirilərək Hələbdə tamaşaya qoyulub. Bunlar Suriyada dahi şairimizə münasi-

bətdən söz açan, tarixə keçəcək əhəmiyyətli məsələlərdir ki, akademikin əsərinin elmi-publisistik dəyərindən xəbər verir.

Akademik Bəkir Nəbiyev bütün titullara, fəxri adlara, yüksək mükafatlara, ordenlərə layiq görülmüş nüfuzlu bir alimdir. Tez-tez məqalə və resenziyaları, hərdən bir monoqrafiyası çap olunur. Ömrünün bu çağında min əzab-əziyyətlə səfər qeydlərini aparması, üzərində işləyib maraqlı elmi-publisistik bir səviyyəyə çatdıraraq dərc etdirməsi düşündürücüdür. Hasil olunan qənaət budur ki, Bəkir müəllim ömrünün mənasını yazıb-yaratmaqda, xalqa xidmətdə görür. Bu isə gənclərə, lap elə biz yaşlılara da örnək olmaq baxımından dəyər kəsb edir. Başqalarına örnək, nümunə olmaq xoşbəxtlikdir. Bu xoşbəxtliyi Bəkir müəllim alın təri, yuxusuz gecələri, halalca zəhməti ilə qazanmışdır – desək həqiqətdən kənar olmaz.

# YARIMƏSRLİK GƏRGİN ƏMƏYİN BƏHRƏSİ*

Akademik Bəkir Nəbiyev «Seçilmiş əsərləri»nin beşinci cildinin redaktorluğunu və əsərə «Ön söz» yazmağı təmənna edəndə, düzü, çox sevindim. Sevindim, ona görə ki, ədəbiyyatşünaslıq elmimizin patriarxı belə bir məsuliyyətli işi mənə etibar edirdi.

Müxtəlif illərdə qələmə alınmış çox ciddi elmi tədqiqat işlərindən ibarət bu kitabda nələr yoxdur?! Kitabda toplanmış sanballı məqalələr, bədii tərcümə, ədəbi əlaqələr, mühacir ədəbiyyatı, ədəbiyyatşünaslıq elmimizin inkişaf istiqamətlərinə dair müəllifin mülahizələri, teatrımız, poeziya və nəsrimiz haqqında fikirləri, dilimiz, əlifbamız,

---

* **«Azərbaycan» jurnalı, 2009, №10, səh.183-187; Bəkir Nəbiyev. Seçilmiş əsərləri. V cild, Bakı – 2009, s.3-20.**

musiqimiz, lüğətlərimiz haqqında qənaətləri və s. bu gün də aktuallığını itirməyən, ədəbi ictimaiyyəti düşündürən məsələlərdir. Doğrudur, bu əsərə qədər də Bəkir müəllimin son vaxtlar yazdığı kitab və məqalələri ilə tanış olmuşdum. Hətta bəzi kitabları barədə məqalələrim də çıxıb: «Nə yaxşı dünyada yaxşı var imiş», «Tarix qurub-yaradanları yaşadır», «Böyük yolun yolçusu», «Tarixi səfərin bəhrəsi» və s.

Alimin bu kitabı məni ağuşuna alıb böyük ideyaların bərqərar olduğu, arzuların bitib-tükənmədiyi bir aləmə usanmadan külüng çalan, ədəbiyyatşünaslıq elmimizin keşiyində müsəlləh əsgər kimi dayanan, yaşamağı, yazıb-yaratmaq üçün qənimət sayan, böyük bir elmi müəssisənin görə biləcəyi vüsətli işləri təkbaşına görən, həyatı, yaradıcılığı, insanlara münasibəti, xeyirxahlığı ilə ətrafındakılara örnək olan Bəkir Nəbiyev aləminə apardı. Bu aləmə nəzər

salanda göz önünə, ilk olaraq dahi Nizaminin kəlamı gəldi: «Dünya bir güzgüdür, hansı əməlin sahibisənsə onu göstərir». Bəkir müəllimin elmi, şəxsiyyəti haqqında təsəvvür əldə etmək üçün bu kitabı oxumaq kifayətdir. Peşəkar və səriştəli qələmin, təfəkkür və məntiqi görüşlərin məhsulu olan kitabı oxuduqca insan ömrü üçün böyük bir zaman kəsiyində ədəbiyyatşünaslıq elmimizin və tənqidimizin keçdiyi enişli-yoxuşlu, keşməkeşli yola nəzər salmaq, ədəbiyyatımızı və ədəbiyyatşünaslıq elmimizi yaradanlar haqqında geniş məlumat, nəzəri biliklər əldə etmək olur.

Akademikin vüsətli elmi tədqiqatlarının beşinci cildi onun son 25 ildə qələmə aldığı əsərlərin az bir qismini əhatə edir. Xüsusi qeyd edilməlidir ki, 500 səhifədən artıq olan bu böyük həcmli kitabda alim bir dəfə də olsun özünü təkrar etmir, hər bir yazı orijinallığı, bənzərsizliyi ilə seçilir.

Alimin «Nəsrimiz bu gün» adlı çox geniş, 46 səhifədən ibarət məqaləsində keçən əsrin 70-80-ci illərində nəşr olunan roman və povestlər təhlilə cəlb olunur. Böyük bir zaman kəsiyində yazılmış əsərlər tədqiqat süzgəcindən keçirilir. Bəkir müəllim yeri gələndə ədəbi mübahisəyə girişməkdən də çəkinmir. H.Mehdiyevi zəif «Sənsiz keçən günlərim» romanına görə ciddi tənqid atəşinə tutanda da, «Tək palıd kölgəsi» və «Azığa doğru» romanlarında sözçülüyə görə müəllifləri qınayanda da, novatorluq, forma bədii əsərlərdə folklorun yeri, dilimizə münasibət və s. məsələlər ətrafında mülahizələrində də tənqidi obyektivdir, qərəzçilikdən uzaqdır.

Akademik «Bədii tərcümənin bəzi problemləri» məqaləsində keçən əsrin 80-ci illərində ölkəmizdə bədii tərcümənin vəziyyətindən söz açır. Məlumdur ki, sahilsiz ümmana bənzəyən bədii ədəbiyyatın qüdrətli qolunu bədii tərcümə təşkil

edir. Çünki bədii tərcümə vasitəsilə Bəkir müəllimin qeyd etdiyi kimi, müxtəlif millətlərə mənsub yazarların ən yaxşı əsərləri ümumi, mədəni sərvətə çevrilir, ədəbiyyatların zənginləşməsinə stimul yaradır.

Müəllif məqalədə bədii əsərlərin, xüsusən də poeziya nümunələrinin tərcümə çətinliklərindən, Azərbaycan dilinə edilmiş tərcümələrin səviyyəsindən bəhs edir. Bədii tərcüməyə dair dəyər kəsb edən mülahizələrini irəli sürür.

Alimin «Ədəbiyyat elmi: uğurlar, problemlər, perspektivlər» məqaləsi maraqla oxunur. Bu məqalədə 70 ildən artıq filologiya elmimizin flaqmanı, Yaxın Şərqdə ədəbiyyatşünaslıq üzrə ilk elmi-tədqiqat mərkəzi, Nizami adına Ədəbiyyat İnstitutunun uğurlarından, problemlərindən və görüləcək işlərindən danışılır.

Qeyd edilir ki, ölkəmiz müstəqillik qazandıqdan sonra ədəbiyyatşünaslıq

elmimizin də qarşısında yeni perspektivlər açılmış, müasir ədəbi prosesin ayrı-ayrı janrlar üzrə inkişaf qanunauyğunluqları və onun yeni-yeni təmayülləri müəyyənləşdirilmişdir. Azərbaycan mühacir ədəbiyyatı araşdırılmışdır: «Türkiyədə Azərbaycan mühacirət ədəbiyyatı», «Azərbaycan mühacirət ədəbiyyatı Fransada» və başqaları bu qəbildəndir.

Bu məqalədə Azərbaycan ədəbiyyatının beynəlxalq əlaqələrinə də geniş yer verilib. Burada Azərbaycan-rus, Azərbaycan-Ukrayna, Azərbaycan-qazax, Azərbaycan-tatar, Azərbaycan-Slovakiya, Azərbaycan-ingilis, Azərbaycan-fransız, Azərbaycan-Latın Amerikası, Azərbaycan-alman, Azərbaycan-polyak ədəbi əlaqələri ön plana çəkilir. Akademik haqlı olaraq elmi tədqiqat işlərinin mərkəzində ədəbiyyat nəzəriyyəsinin durduğunu xüsusi vurğulayır və institutda uğurla yerinə yetirilmiş tədqiqat işlərinə istinad edir, bir çox elmlər dok-

toru, görkəmli alimlərdən söz açır.

«Ədəbiyyat tariximizin yeni cildləri» adlanan çox geniş və mötəbər məqalədə isə sözügedən cildlərin mahiyyətindən, onun işıq üzü görmüş ilk iki cildində qoyulan problemlərdən, əsərləri həmin cildlərə daxil edilən alimlərimizdən, o cümlədən dünyasını dəyişmiş tədqiqatçılardan, onların onilliklər boyu gördükləri yaradıcılıq işlərindən söz açılmışdır.

Doğrudur, sovet dönəmində ədəbiyyatımıza, ədəbiyyat nümayəndələrinə tuşlanmış amansız repressiyalar və nəticədə çoxsaylı itkilər təbii ki, yaradıcılıq mühitində akademikin qeyd etdiyi kimi, bir vahimə, kabus qorxusu yaradır, sərbəst düşüncə meyllərini az qala heçə endirirdi. Bununla belə, filoloji fikrimizin mərkəzinə çevrilən Nizami adına Ədəbiyyat İnstitutunda Azərbaycan Ədəbiyyatı tarixinə dair XX əsrin 40-cı illərində bir çox əsərlər çap olunmağa başladı. Təəssüf ki, böyük elmi dəyər

kəsb edən böyük elmi əsərlərin müəllifləri istəsələr də, o zamankı ideoloji çərçivədən kənara çıxmaq iqtidarında olmadıqlarından həmin əsərlər müəyyən qüsurlardan xali deyildilər. Odur ki, müəllif ədəbiyyat tariximizi daha obyektiv meyarlarla dəyərləndirmək üçün münbit şərait yarandığı müstəqillik dövrümüzdə ədəbiyyat tariximizə milli ideologiya prizmasından baxmağın vacibliyini ortaya qoymuşdur. Altıcildlik «Azərbaycan ədəbiyyatı tarixi»nin yaranma zərurəti bununla ilgilidir. Çoxcildliyin əsas məqsədi, müəllifin göstərdiyi kimi, folklor qaynaqlarından başlamış, klassik yazılı irs, yeni dövr və çağdaş ədəbi prosesin inkişafını izləmək, zəngin bədii söz sərvətimizin milli mənəvi dəyərini müəyyənləşdirməkdir. Bu altıcildlikdə ilk dəfə olaraq xalqımızın ədəbi-ictimai fikir tarixinin sovetlərin sərt ideoloji qadağa buxovlarından azad surətdə şərh olunduğu müəllif tərəfindən vurğulanır.

Akademikin «Azərbaycan ədəbiyyatı elmi mühacirətdə» əsərində xarici ölkələrdə, qürbət dərd-sərinə rəğmən ədəbiyyat elmimizi təbliğ və inkişaf etdirən Əlibəy Hüseynzadə, Əhməd Ağaoğlu, Məhəmməd Əmin Rəsulzadə, Səməd Ağaoğlu, Əlimərdan bəy Topçubaşov, Ceyhun Hacıbəyli, Əhməd Cəfəroğlu və digər görkəmli şəxsiyyətlərin yaradıcılığına geniş yer verilib.

Tədqiqatçı M.Ə.Rəsulzadənin «Böyük Azərbaycan şairi Nizami» monoqrafiyasını dahi şairimizə həsr olunan ən yaxşı əsər kimi qiymətləndirir və fikrini təsdiq üçün monoqrafiyanı başdan-ayağa təhlil edir, məntiqi nəticələrə gəlir. Müəllif M.Ə.Rəsulzadənin Nizaminin əsərlərinin bütövlükdə insan əxlaqını kamilləşdirməyə xidmət baxımından yüksək qiymətləndirdiyini xüsusi vurğulayır və bir alim kimi qaldırılan problemə münasibətini də bildirir. «M.Ə.Rəsulzadənin Nizami haqqında kitabı müha-

cirət ədəbi fikrinin, özəlliklə nizamişünaslığın ən dəyərli uğurlarından biri, bəlkə də birincisi olub, XX əsrin ikinci yarısından etibarən Azərbaycanda ədəbiyyat elminin inkişafına ciddi kömək etmişdir».

«Ədəbiyyatın fəlsəfəsinin tədqiqi» məqaləsi xüsusi maraq doğurur. Etiraf edirəm ki, AMEA-nın müxbir üzvü, prof. Səlahəddin Xəlilovun ədəbiyyat elmində belə səlahiyyətli söz sahibi olmasını Bəkir müəllimin bu məqaləsindən sonra daha yaxşı dərk etdim.

Bəkir müəllimin göstərdiyi kimi, prof. S.Xəlilovun xidməti bədii əsərlərimizi dünya fəlsəfi fikri kontekstində tədqiq etmək, bu baxımdan Şərq-Qərb fəlsəfələri arasında körpü salmaq olmuşdur. Demək lazımdır ki, bir filosof kimi prof. S.Xəlilovu fərqləndirən mühüm bir cəhət də vardır. O da alimin ədəbiyyatımızın nəzəri məsələləri ilə bağlı mütəmadi olaraq fəlsəfi araşdırmalar aparmasıdır.

Bəkir müəllimin məqaləsindən çox sonra prof. S.Xəlilovun işıq üzü görən «Cavid və Əttar» məqaləsi *(«Ədəbiyyat qəzeti», 1.05.09)* deyilənlərə dayaq olur. Məhz buna görədir ki, görkəmli alimlərimiz, mərhum Yaşar Qarayev, Kamal Talıbzadə, eləcə də Bəkir Nəbiyev tədqiqatçının əsərlərinə sanballı məqalələr həsr etmiş, kitablarının redaktoru olmuşlar.

Akademikin «Nadir istedad» adlı məqaləsi görkəmli yazıçı, alim-pedaqoq Mir Cəlal Paşayevə həsr olunmuşdur. Alim məqalədə Mir Cəlalın mötəbər söz sahibi olduğunu inkarolunmaz faktlarla bir daha açıb göstərmişdir. Mir Cəlalın ədəbi məktəblər və ədəbi cərəyanlar probleminə həsr olunan fundamental tədqiqatları, klassik irslə bağlı «Klassiklər və müasirlər», «Füzuli sənətkarlığı» əsərləri bu gün belə orijinallığını itirməyib. Bununla yanaşı, Mir Cəlal müəllim M.F.Axundov, S.Ə.Nəbati, M.Ə. Sabir, A.Səhhət, C.Məmmədquluzadə,

Ə.Haqverdiyev, N.Nərimanov, R.Taqor, A.Çexov, M.Qorki, M.Şoloxov və başqaları haqqında sanballı tədqiqatlar ortaya qoymuşdur. Həmin əsərlər indi də filoloqların diqqət mərkəzindədir. Bütün bunlar haqqında Mir Cəlalın sevimli tələbəsi olmuş, hələ 1967-1968-ci illərdə ədibin «Seçilmiş əsərləri»nin dördcildliyinə «Son söz» yazmış Bəkir müəllim ətraflı danışır.

«Ədəbiyyatımızın Anar fenomeni» məqaləsində akademikin yazıçını ədəbiyyatımızın fenomeni kimi şərəfli ada layiq görməsi həqiqətdən kənar deyildir. Ədəbiyyatımıza yeni ab-hava gətirən, 60-cılar nəslinin görkəmli nümayəndəsi Anar dünyada, xüsusən də türk aləmində qədərincə tanınan istedadlı yazıçı, xalqımıza üzağlığı gətirən ziyalımızdır. Anar akad. Bəkir Nəbiyevin xüsusi vurğuladığı kimi, klassik ədəbi irsimizlə sabahkı fəlsəfi fikrimiz arasında mötəbər mənəvi körpü rolu oynaya biləcək nadir

sənətkarlarımızdan biri, fikir yeniliyi, bədii və elmi təfəkkürünün orijinallığı, təkrarsızlığı və intellektual səviyyəsi ilə seçilən şəxsiyyətdir.

Adətən, Anar deyəndə, göz önünə, ilk olaraq, maraqlı hekayələr, povestlər, romanlar, dram əsərləri, ssenarilər müəllifi gəlir. Lakin Anarı fərqləndirən bir yaradıcılıq sahəsi də vardır ki, bəlkə də bununla bağlı ilk mötəbər söz açan, onun ədəbiyyatşünaslıq və tənqid sahəsində gördüyü səmərəli işləri göz önünə gətirən akad. Bəkir Nəbiyevdir.

O da önəmlidir ki, Anar ədəbiyyatı zaman və tarix kontekstində, öz yazıçı dünyagörüşü işığında təhlil edir.

Müəllif «Hərənin öz yolu var» məqaləsində yazıçı H.Mirələmovun yaradıcılığına bütövlükdə nəzər salır, onun bir nasir, publisist və ictimai xadim kimi səmərəli fəaliyyətindən söz açır.

«İlyas Əfəndiyevin «Seçilmiş əsərləri»nin üçcildliyi» məqaləsində müəllif

ədibin hekayə, povest, roman və pyeslərindən söz açaraq göstərir ki, onun yazdığı əsərlər həmişə təzə-tərdir. «Zamana yazıçısı» olmadığından onun əsərləri bütün zamanlar üçün keçərlidir. Məhz buna görə də akademikin göstərdiyi kimi, əsərləri dönə-dönə çap olunanda bir çox yazıçılardan fərqli olaraq bir əsəri belə «vaxtı keçmiş» deyə çıxdaş edilmir.

İ.Əfəndiyevlə bağlı Bəkir müəllimin təəssüratları maraqla oxunur və nəticə çıxarmaq yönündə bələdçiyə çevrilir. Bu yazıda indiyə qədər ictimaiyyətə az məlum olan düşündürücü məqamlar qədərincədir.

Alimin dərin məna ehtiva edən «Yeni görüşün intizarında» məqaləsini oxuduqca, bu və ya digər yazıçının əsərləri barədə səndə rəğbət doğuran hisslər baş qaldırır. Həmin əsərləri yenidən oxumaq istəyirsən. Bəkir müəllimin Ənvər Məmmədxanlının əsərlərinin ikicildliyinə həsr

olunmuş, məhəbbətlə yazılmış «Yeni görüşün intizarında» məqaləsini oxuyanda sanki gənclik illərinə, arzuların aşıb-daşdığı vaxtlara qayıtdım. Məni ədibin əsərlərini yenidən oxumaq həvəsi çulğadı.

Tənqidçinin «Əməllər və xatirələr» məqaləsi Hüseyn Abbaszadənin «Dünyadan gör necə insanlar gedib» kitabı haqqındadır. Apardığım müşahidələr göstərir ki, insan müəyyən yaş dövründən sonra təxəyyül məhsulu olan roman və povestlərdən daha çox real həyat hadisələrinə, tanınmış şəxsiyyətlərə dair əsərlərə – memuar ədəbiyyatına üstünlük verir. Xalq yazıçısı Hüseyn Abbaszadənin «Dünyadan gör necə insanlar gedib» xatirələri Azərbaycan xalqına mədəni dünyada başucalığı gətirən Ü.Hacıbəyov, S.Vurğun, Q.Qarayev, Rəsul Rza, S.Bəhlulzadə, Mehdi Məmmədov, Adil İskəndərov, İsmayıl Osmanlı, Məmməd Arif, Mikayıl Rəfili, Cəfər Cəfərov kimi xalq

qarşısında xidmətləri olan şəxsiyyətlərin həyat və fəaliyyətlərindən bəhs edir. Akad. Bəkir Nəbiyev adı çəkilən təkrarsız simaların çoxunu şəxsən tanıdığına, təmasda olduğuna görə onlarla bağlı qəlb çırpıntılarını, məhəbbətini, təəssüratını H.Abbaszadənin xatirələrinə qataraq maraqlı və örnək olacaq məqalə yazmış, memuar ədəbiyyatının məziyyətlərindən və əhəmiyyətindən söz açmışdır. Onu da xüsusi vurğulamışdır ki, H.Abbaszadənin xatirələri fakt zənginliyi, inandırıcılıq qüvvəsi və səmimi ahəngi ilə fərqlənir.

Bəkir müəllimin qeyd etdiyi kimi, insanlar dünyamızdan köçür, lakin onların əməlləri, bir də barəsində xatirələr qalır.

Xoşbəxt o kəslərdir ki, elə yaşasın, elə yaratsın ki, əbədiyyətə qovuşandan sonra H.Abbaszadənin söz açdığı insanlar kimi, xalqa gərəkli əsərləri, haqqında unudulmaz xatirələr qalsın.

Tədqiqatçının «Meydan kiçik olsa

da...» məqaləsi şair Hüseyn Kürdoğlunun «Min bir bayatı» (Bakı, 1992) kitabına həsr olunmuşdur. Bəkir müəllim doğru olaraq qeyd edir ki, folklorumuzun, eləcə də klassik ədəbiyyatımızın ən kamil növü olan bayatılara çağdaş şairimizin müraciət etməsini onun yaradıcılığında gerilik, mühafizəkarlıq kimi qiymətləndirmək böyük yanlışlıq olardı. Sənətkar ruhən, mənən, dünyanı yenilikçi kimi qavraya bilirsə, hansı formada yazdığından asılı olmayaraq onun əsərləri həmişə təzə və təravətlidir. Maraqlıdır ki, şair bayatı janrına İraqda yaşayan azərbaycanlıların xoyratlardan (cinas bayatılardan) ilhamlanaraq müraciət etdiyini xüsusi vurğulayır: «Qəzənfər müəllimin Kərkük bayatılarına həsr olunmuş kitabları mənim bayatı yaradıcılığımda böyük bir dönüş yaratdı. Bu doğma və qədim şeir janrına məndə sonsuz inam hissi oyatdı» *(Bax: «Tovuzum mənim, oğuzum mənim» poeması. Bakı,*

*1998, s.6.).*

Həqiqətən də, şairin bayatı janrına dönüşü və inamı «Aşıq və Yaxşı», «Tovuzum mənim, oğuzum mənim» poemalarının meydana gəlməsinə (1997), «Yurduma qurbandır sözüm» (Bakı, 2005) kitabında böyük bir fəslin cinas bayatılara (xoyratlara) həsr olunmasına gətirib çıxardı.

Bilmək maraqlıdır ki, Kərkük xoyratları hələ H.Kürdoğluya qədər Azərbaycanda «sərbəst şeir məktəbi»nin banisi Rəsul Rzaya da dərin təsir etmişdi. Rəsul Rzanın «Aşıq Yanıqlı bayatıları» (1964) və «Yaralı Kərkükün bugünlü xoyrat və maniləri» (1980) silsiləsindən olan bayatıları və H.Kürdoğlunun topluları bir daha təsdiq edir ki, xalq yaradıcılığının hətta ən qədim növü belə istedadlı sənətkar əlində yeni dövrün fikrini ifadə etməkdə çox münasib forma olur.

Akademik Bəkir Nəbiyev bayatılardan danışarkən qeyd edir ki, alimlərin

də, bayatısevərlərin də çoxu bu fikirdədir ki, onun ilk iki misrası sonrakı misralar üçün formal zəmin hazırlayır və əsl mətləb sonuncu beytdə ifadə olunur. Elə buradaca deyək ki, bunu ucdantutma bütün bayatılara aid etmək olmaz. Hələ 1943-cü ildə Mehdi Hüseyn M.H.Təhmasibin tərtib etdiyi «Bayatılar» kitabına yazdığı «Müqəddimə»də, Əta Tərzibaşı «Kərkük xoyrat və maniləri» kitabında (1951) sonralar M.H.Təhmasib, Ayaz Vəfalı və başqaları hər biri ayrılıqda bitgin bədii əsər olan, fəlsəfi fikrin, əxlaqi və ictimai sambalın dərinliyi ilə seçilən, nüvəsini poetik fikir təşkil edən bayatılara bu cür münasibətə, onların bədii cəhətdən qeyri-mükəmməl kimi təqdimatına qarşı çıxmışlar.

Bu bir həqiqətdir ki, ruhən xalq poeziyasına bağlı olan, sevən və ondan bəhrələnən şairlərin əsərləri xalq ruhuna son dərəcə yaxın olduğundan onları xalq əzbər bilir. Bunu biz M.P.Vaqifin, S.Vur-

ğunun, O.Sarıvəllinin, H.Arifin və nəhayət Z.Yaqubun timsalında görürük. Akademik Bəkir Nəbiyev Zəlimxan Yaqubun «Biz bir eşqin butasıyıq» əsəri üzərində tədqiqat apararkən bunu dərindən duymuş və yazmışdır: «Zəlimxan Yaqubun sazı Azərbaycan folklorunun əbədiyyət kəsb etmiş ənənələri, aşıq sənətinin dəyərləri üstündə köklənmişdir… Kəndistan, təbiətin gözəllikləri, dağ obalarımızın sakinləri Zəlimxanın stixiyasıdır».

Həqiqətən Z.Yaqub xalq arasında çox olan, sevilən şairlərdəndir. Xalq ruhu, aşıq poeziyası onun yaradıcılığında qırmızı xətt kimi keçir.

Bəkir müəllim Zəlimxanın Aşıq Ələsgərə həsr elədiyi poema üzərində xüsusi dayanır və onu yüksək qiymətləndirir. Maraqlı bir paralel aparmaqdan çəkinmir: «Mən vaxtilə M.Rahimin, İ.Səfərlinin və bəzi digər şairlərin Ələsgərə həsr olunmuş poemalarını oxumu-

şam. Onların hərəsinin özünəməxsus keyfiyyətləri var. Lakin adı çəkilən müəlliflərdən fərqli olaraq Zəlimxan Ələsgəri yetirən mühitə, aşığın irsinə, onun ətrafında yaranmış el ədəbiyyatına, xalq əfsanələrinə yaxşı bələddir».

Məntiqi nəticə odur ki, onun əsəri Ələsgər ruhuna daha yaxındır. Xalq şairi Zəlimxan Yaqubun Azərbaycan Aşıqlar Birliyinin sədri olması da deyilənlərə işıq tutur və çox mətləblərdən xəbər verir.

Akademikin «Janrın çətin yollarında» məqaləsi xalq yazıçısı Elçinin «Ölüm hökmü» romanına həsr edilib. Ədəbi aləmdə «60-cılar» kimi tanınan nəslin ən görkəmli nümayəndələrindən olan Elçinin istedadı imkan verib ki, bədii əsərlərində, özəlliklə romanlarında həyatın hər yazıçıya qismət olmayan qatlarına enə bilsin. Başqalarının görə bilmədiklərini görə bilsin, yeni yolla gedə bilsin, oxucuya bənzərsiz əsərlər bəxş edə bilsin.

Akademik Bəkir Nəbiyevin «Janrın

çətin yollarında» məqaləsində deyilənlər əsas meyar kimi götürülmüşdür. «Ölüm hökmü» romanı çağdaş ədəbiyyatımızda hadisə kimi qiymətləndirilmişdir.

Nə gizlədim, yuxarıda dediyim kimi, Bəkir müəllimin «Janrın çətin yollarında» məqaləsi mənə o qədər təsir etdi, o qədər maraqlı gəldi ki, onu iki dəfə oxudum və əsərin əvvəl duymadığım incəliklərini daha yaxşı anladım.

Onu da deyək ki, Elçinin romanlarını, o cümlədən də «Ölüm hökmü»nü oxunaqlı edən, sevdirən, başlıca amillərdən biri onun dilidir. Ədibin bədii kəsəri ilə seçilən, oxucuya estetik zövq aşılayan dili ədəbi dillə xalq danışıq dilinin qovşağında bərqərar olduğundan bulaq kimi saf, qəlbə yatan, insana rahatlıq gətirən düzlü, şirin, zəngin bədii dilidir.

«Məruzələr və çıxışlar» bölməsi maraqlı faktlarla zəngindir. Bu bölmədən oxucular biləcəklər ki, ekologiyaya dair

keçmiş sovetlər birliyində ilk həyəcan təbilini çalan akademik Həsən Əliyev olmuşdur. Oxucular onu da biləcəklər ki, dünya şöhrətli xalçaçı Lətif Kərimov bu sənətin sirrlərini uşaqlıqdan Təbrizdə öyrənibmiş. Oxucular V.Andriyanov və H.Mirələmovun «İlham Əliyev» kitabı haqqında məruzədən onu da biləcəklər ki, kitabda indiyə qədər ictimaiyyətə açıqlanmayan çoxlu maraqlı faktlar vardır. Eləcə də İmam Əlinin «Nəhcül bəlağə» kitabı haqqında yazı orijinallığı ilə seçilir. «Müdrik kəlamın tükənməz xəzinəsi» adlanan bu yazı, əslində, akademikin özünün də müdrikliyinə, hərtərəfli bilik sahibi olmağına dəlalət edir.

Görkəmli kamançaçı Habil Əliyev müasirimiz olduğundan, tez-tez televiziya ekranlarında maraqlı çıxışlar etdiyindən hamı onu tanıyır. Lakin gənclər bilmir ki, Habil Əliyev mahir ifaçı olmaqla bərabər, həm də yadda qalan, sevilən mahnılar bəstələmişdir. Onun bəstələdiyi

«Şəhla gözlüm», «İlk məhəbbət», «Gülüm yatsın», «Güləsən gərək» kimi 15-ə yaxın mahnısı olduğunu Bəkir müəllimin «Kamança da insan kimi danışarmış» məqaləsindən biləcəksiniz.

«Səhnəmiz və biz» bölməsində akademik B.Nəbiyevin H.Cavidin «İblis», İ.Əfəndiyevin «Hökmdar və qızı», S.Vurğunun «Fərhad və Şirin», B.Vahabzadənin «Özümüzü kəsən qılınc» səhnə əsərlərinə həsr olunmuş maraqlı resenziyaları vardır. Burada oxucu və tamaşçılar üçün yeni və çox maraqlı məqamlar gündəmə gətirilir.

Akademik Bəkir Nəbiyevin bu qiymətli əsəri söz ehtiyatını zənginləşdirmək arzusunda olanlar üçün ən layiqli mənbə olardı.

Bəkir müəllimin sözdən məharətlə istifadə etmək qabiliyyəti, qanadlı sözləri, yerli-yerində işlətməsi, xalq danışıq dilinin incəliklərinə dərindən bələd olması adamı heyran edir. Bütün bunlar

ədəbiyyatşünaslıq elmimizə, yazıçı və şairlərimizin yaradıcılığına həsr olunan titanik zəhmətin, gərgin əməyin bəhrəsi olan bu dəyərli elmi əsərin maraqla oxunmasına zəmin yaradır. Kitaba daxil edilən məqalələrin bir çoxu 20-25 il bundan əvvəl kiril qrafikasında çap olunduğundan filologiya fakültəsinin tələbələrinin və gənc ədəbiyyatşünasların çoxu onlardan faydalana bilmirdilər. Odur ki, onların latın qrafikasında çapı gündəmdə duran məsələlərdən idi. Əsərin məziyyətləri barədə danışmaqla qurtaran deyil. Təkcə onu demək kifayətdir ki, qloballaşmanın bütün fəsadları ilə mədəniyyətimizə, hətta mənəviyyatımıza nüfuz etdiyi, keçmişimizə xor baxanların, başqalarının dəyirmanına su tökən, «sapı özümüzdən olan baltalar»ın, özünü və sözünü bilməyənlərin mətbuatda meydan suladığı keşməkeşli zəmanəmizdə akad. B.Nəbiyevin «Seçilmiş əsərləri» kimi kitablara böyük ehtiyac duyulur. Ən

azından ona görə ki, yaxın keçmişdə görülmüş möhtəşəm işləri göz önünə gətirək, qiymətləndirək, bir daha kimliyimiz, mədəniyyətimiz və mənəviyyatımız haqqında düşünək.

# ƏDƏBİYYATŞÜNASLIQ ELMİMİZİN TƏNTƏNƏSİ

Tarixi şəxsiyyətlər haqqında yazmaq nə qədər şərəfli və məmnunluq gətirən bir iş olsa da, o qədər də çətin və məsuliyyətli bir işdir. Azərbaycan tarixində bir epoxa olan, misilsiz xidmətlərinə görə xalqın xatirəsində ədəbi yaşamaq hüququ qazanan, onun qürur və güvənc yerinə çevrilən dahi şəxsiyyət Heydər Əliyev haqqında kitab yazmaq isə daha böyük məsuliyyət tələb edir. Məhz buna görə də görkəmli ədəbiyyatşünas alimlərimizin bədii sözün intəhasız imkanlarından məharətlə istifadə edərək Azərbaycanın salnaməsinə qızıl hərflərlə yazılmış bu bənzərsiz tarixi şəxsiyyətə həsr etdikləri «Heydər Əliyev və Azərbaycan ədəbiyyatı» («Şərq-Qərb», 2009, 248 səh.) adlı əsəri böyük maraqla oxuyub başa çatanda bir rahatlıq hissi keçirdim. Bir daha özüm

üçün kəşf etdim ki, dahilər dünyalarını dəyişirlər, lakin onların fikir və ideyaları yaşayır, aktuallığını itirmir, bütün zamanlar üçün gərəkli olurlar. Kitabı oxuyaraq gəldiyim ilk qənaət bu oldu ki, Heydər Əliyevin başqa sahələrdə olduğu kimi, bədii ədəbiyyat, ədəbiyyatşünaslıq, tənqid, bədii tərcümə sahəsindəki fikir və ideyaları bugünümüz üçün də aktual olaraq qalır. Kitabdan hasil etdiyim mühüm bir qənaət də o oldu ki, ulu öndərimizin istər klassik irs, istər çağdaş ədəbiyyatımız, istər ədəbi proses, istərsə də folklorumuz barədə heyrətamiz bələdliklə mülahizələr yürütməsi, məsələnin kökünə nüfuz etməsi onun fitri istedadından və mənəvi dəyərlərimizə tükənməz məhəbbətindən xəbər verir.

Onu da deyim ki, bu mövzu hələ Heydər Əliyevin sağlığında gündəmdə olmuş, 1998-ci ildə «Heydər Əliyev və Azərbaycan ədəbiyyatı» işıq üzü görmüşdü. Həmin kitabda akademik Bəkir Nəbiyev, müxbir üzv Yaşar Qara-

yev, professorlar Vilayət Quliyev və Məhərrəm Qasımlının bu gün də aktuallığını itirməyən əsərləri toplanmışdı. Lakin əsərin nəşrindən keçən illər ərzində həmin mövzu bir sıra yeni materiallarla zənginləşmişdir. Odur ki, Milli Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunda yeni müəlliflər cəlb etməklə əsərin yenidən işlənmiş nəşri hazırlanmışdır. «Yenidən işlənmiş nəşri» məsələsinə aydınlıq gətirmək üçün bircə misalla kifayətlənəcəyəm. İlk kitabda akademik Bəkir Nəbiyevin məqaləsi 24 səhifə, yeni kitabda 69 səhifədir. Professor Vilayət Quliyevlə müxbir üzv Teymur Kərimlinin «Heydər Əliyev və klassik ədəbiyyat» əsərinin və professor Məhərrəm Qasımlının əsərinin həcmi iki dəfəyə qədər artıb. Professor Nizaməddin Şəmsizadənin «Heydər Əliyev və Azərbaycançılıq», eləcə də filologiya üzrə fəlsəfə doktoru Nikpur Cabbarlının «Heydər Əliyev və ədəbi proses» əsərləri isə tama-

milə yeni olub ilk dəfə məhz bu kitabda nəşr edilmişdir.

Kitabda müasir Azərbaycan dövlətinin banisi, xalqımızın ümummilli lideri Heydər Əliyevin çağdaş ədəbiyyatımız, folklorumuz və klassik ədəbi irsimizlə bağlı fikir və mülahizələri şərh edilir, bu sahəyə ümummilli liderimizin qayğısından bəhs edilir və mənəviyyat sahəsində müdrik siyasətinin mahiyyəti, ədəbiyyatımızın inkişafı, yazıçı və şairlərimizin taleyi və təbliği ilə bağlı misilsiz xidmətləri zəngin faktlar əsasında açıqlanır.

Bəri başdan deyim ki, alimlərimiz bu məsuliyyətli işin öhdəsindən şərəflə gələ bilmişlər. Əsəri oxuduqca qəlbi xalqa məhəbbətlə döyünən, usanmaq bilmədən xalqa xidmət göstərən öndərimizin Azərbaycan ədəbiyyatı sahəsində gördüyü miqyaslı işlər göz önünə gəlir. Aydınca görünür ki, bütün başqa sahələrə olduğu kimi, o, ədəbiyyatımıza, yazıçı və şairlərə, ədəbiyyatşünaslara da qədərincə qayğı göstərmişdir. Çünki, ümummilli

liderimiz cəmiyyətdə ədəbiyyatın rolunu dərindən dərk edir və yüksək qiymətləndirirdi. Bu münasibətlə deyirdi: «Şəxsən mənim bir insan kimi formalaşmağımda, təhsilimdə, əxlaqımda, mənəviyyatımda ədəbiyyatın, mədəniyyətin çox böyük rolu olmuşdur… Onlar mənə təsir edib, mən onlardan bəhrələnmişəm, mənəvi qida almışam, ədəbiyyatla, mədəniyyətlə daim bağlı olmuşam... Milli özünüdərk, milli oyanış, dirçəliş prosesi xalqımıza birinci növbədə ədəbiyyatdan keçir» - deyən öndər ən ağır keçid dövründə belə bu inamından dönmədi. Azərbaycan Yazıçılar Birliyi və onun ədəbi orqanlarının dövlət büdcəsindən maliyyələşdirilməsinə rəvac verdi. Yazıçı və şairlərin yubileyləri keçirildi. Şəxsən özünün iştirak etdiyi yubiley tədbirlərində klassik irsimizə, ədəbiyyatımızın inkişafına dair çıxışlarında tarixi keçmişimizi inkar edənləri kəskin tənqid edirdi. Yaradıcı adamları özgə dəyirmanına su tökən bədxahlardan qoruyurdu: «Bu gün onu

deyə bilərəm ki, Süleyman Rüstəm, Səməd Vurğun, Rəsul Rza kimi böyük şairlərə, onların yaradıcılığında bugünkü günə uyğun olmayan hansısa nüansları tapıb irad tutmaq hesab edirəm ki, mənəviyyatsızlıqdır».

Heydər Əliyev yazıçı və şairləri ədəbi dil normasının, nitq mədəniyyətinin qanunvericisi hesab edir, onların yubileylərinin keçirilməsinə xüsusi önəm verir, bir çoxlarının anlaya bilmədiyi məqamları açıqlayırdı: «Tarixi şəxsiyyətlərin yubileylərinin keçirilməsi, bir tərəfdən, onların xalq qarşısında, millət qarşısında xidmətlərinə verilən qiymətdir. Bu, lazımdır, özü də mütləq lazımdır. Digər tərəfdən isə, belə yubileylərin keçirilməsi xalqın, millətin zənginliyini nümayiş etdirir. Eyni zamanda bu yubileylər xalqın, millətin daha da yüksəlməsinə kömək edir… Bir daha qeyd edirəm ki, bu yubileylərin keçirilməsində məqsəd həmin şəxslərin özlərinin yada salınmasından çox, xalqın elminin,

mədəniyyətinin, mənəviyyatının zənginliyini nümayiş etdirməkdir və indiki nəslə, gələcək nəsillərə onlardan daha faydalı istifadə etmək üçün imkan yaratmaqdır».

Heydər Əliyevin bu qəbildən həyata keçirdiyi dövlət səviyyəli tədbirləri saymaqla qurtaran deyil. Buraya həm yubiley tədbirləri: Nəsimi, Füzuli, Vaqif, M.F. Axundov, Ü.Hacıbəyli, C.Məmmədquluzadə, H.Cavid və başqaları, Nəsiminin, Nərimanovun, Cabbarlının heykəllərinin, Şüvəlanda Yazıçıların Yaradıcılıq evinin, Şuşada Vaqifin, Naxçıvanda Cavidin məqbərəsinin açılışı və s. daxildir.

Göründüyü kimi, Nəsimi də, Füzuli də, Vaqif də, Cəfər Cabbarlı da, Hüseyn Cavid də Heydər Əliyevin milli ədəbiyyatımıza sonsuz məhəbbəti və qayğısı nəticəsində daha çox təbliğ olunmuş, tanınmış və sevilmişlər. Heydər Əliyev xalq qarşısında böyük xidmətləri olan S.Rüstəm, R.Rza, İ.İbrahimov, S.Rəhimov, eləcə də musiqi mədəniyyətimizin görkəmli nümayəndələri Qara Qarayev

və Niyazinin Sosialist Əməyi Qəhrəmanı kimi yüksək fəxri ada layiq görülməsinə nail oldu.

Əvvəldə qeyd etdiyimiz kimi ulu öndərimizin şəxsi təşəbbüsü və səyi nəticəsində ilk dəfə olaraq yazıçıların VI qurultayının (1981) gündəliyinə Güney Azərbaycanda ədəbi proses barədə məruzə salınmışdır. Yazıçılar İttifaqında Cənubi Azərbaycan ədəbiyaytı problemləri üzrə katibliyin, eləcə də Nizami adına Ədəbiyyat İnstitutunda Cənubi Azərbaycan ədəbiyyatı şöbəsinin yaradılması da ümummilli liderimizin şəxsi əzmkarlığı və cəsarəti sayəsində mümkün olmuşdu. Sovet dönəmində belə bir addımı ədəbiyyatımızı və xalqımızı tükənməz məhəbbətlə sevən bir adam ata bilərdi. Az sonra Heydər Əliyev böyük cəsarət və məsuliyyət tələb edən başqa bir addım atdı. Hüseyn Cavidin nəşi Sibirin məhbəs məzarlığından gətirilib anadan olduğu Naxçıvanda torpağa tapşırıldı. Sovet rejiminin qılıncının dalı da, qabağı

da amansızcasına kəsdiyi bir zamanda bunun necə təhlükəli addım olduğunu yaşlı adamlar yaxşı bilirlər. Yaşlı adamlar onu da yaxşı bilir ki, Sovet dönəmində Azərbaycan Sovet Ensiklopediyasının binasının tikilməsi və oncildlik ensiklopediyamızın hazırlanması və çapı da Heydər Əliyevin titanik zəhməti hesabına başa gəlib.

Heydər Əliyev folklor, xalq musiqisi, etnoqrafiya kimi ən müxtəlif sahələri ehtiva edən milli-mənəvi dəyərlərimizə xüsusi diqqət və qayğı göstərirdi. Onun Azərbaycana rəhbərlik etdiyi dönəmdə Azərbaycan Aşıqlar Birliyi, Aşıq Pəri Məclisi, Muğam teatrı, «Bulaq» və «Ozan» kimi tele-radio verilişləri meydana gəldi və milli-mənəvi dəyərlərimizin təbliğində əlahiddə xidmətlər göstərdi. Folklorumuzun toplanması, nəşri və tədqiqi sahəsində işi canlandırmaq üçün Heydər Əliyevin zamanında analoqu olmayan Folklor İnstitutu yaradıldı. Öndərimizin təşəbbüsü ilə ikicildlik

«Kitabi-Dədə Qorqud» ensiklopediyası yaradıldı. «Kitabi-Dədə Qorqud» eposunun 1300 illik yubileyi keçirildi. Heydər Əliyev «Kitabi-Dədə Qorqud»un mədəniyyətimiz və mənəviyyatımızda tutduğu yeri qütbləri düz göstərən kompas kimi dəqiq göstərdi: «Kitabi-Dədə Qorqud» özündə böyük elmi, mədəni, mənəvi fikirlər cəmləşdirən abidədir… Biz fəxr edirik ki, «Kitabi-Dədə Qorqud» kimi tarixi abidəmiz vardır».

Heydər Əliyevin ən böyük xidmətlərindən biri də azərbaycançılıq ideologiyasını formalaşdırması oldu. «Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli məsuliyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyəti, milli-mənəvi dəyərləri, adət-ənənələri yaşatmalıyıq» - deyən ümummilli liderimizə görə dil yalnız bir mənəviyyat problemi olmayıb, Azərbaycan ideologiyasının təməl problemidir. Öndərimiz Azərbay-

can dilinin taleyinə millətin və dövlətin taleyi müstəvisindən baxır və qətiyyətlə deyirdi: «Müstəqil Azərbaycan Respublikasının gələcəyi üçün ən əsas vasitələrdən biri ana dilimizin, dövlət dilimizin inkişaf etdirilməsidir».

Heydər Əliyevə görə azərbaycançılıq təliminin təməl qaynaqlarından biri də bədii ədəbiyyatdır. Təsadüfi deyildir ki, öndərimiz S.Vurğunun millətimizi azərbaycançılıq təməlinə bağlayan «Azərbaycan» şeirini əzbər deməkdən usanmırdı. Ustad Şəhriyarın «Heydərbabaya salam» əsərini yüksək qiymətləndirirdi.

«Heydər Əliyev və Azərbaycan ədəbiyaytı» əsərindən hasil olan başlıca qənaətlərdən biri də odur ki, öndərimiz görkəmli dövlət xadimi olmaqla bərabər, eyni zamanda Azərbaycan mənəviyyatının ən mühüm sahələrinə dair dərin biliklərə sahib olan qeyri-adi şəxsiyyət, Azərbaycan mənəviyyatının ən böyük daşıyıcısı kimi tariximizdə qaldı.

Heydər Əliyevin gördüyü vüsətli işlər

bütövlükdə əsərdə öz əksini tapıb. Mübaliğəsiz deyə bilərik ki, «Heydər Əliyev və Azərbaycan ədəbiyyatı» hamının stolüstü kitabı olmağa layiq qiymətli tədqiqat əsəridir. Odur ki, əsərin dövlət mükafatına layiq görülməsi təqdirəlayiq hadisədir.

Dövlət mükafatını alimlərimizə təqdim edən möhtərəm prezidentimiz İlham Əliyevin ədəbiyyatımız, elmimiz və dilimizin inkişafı yolunda gördüyü müstəsna işlər də kitabda qədirşünaslıqla gündəmə gətirilir. Xüsusi vurğulanır ki, prezidentimizin milli-mənəvi və dövlətçilik əhəmiyyəti daşıyan sərəncamları çox vacib sənədlər olub, tarixi əhəmiyyət kəsb edir. Danılmaz həqiqətdir ki, prezidentimiz milli xüsusiyyətlərin saxlanmasında ana dili və ədəbiyyatımızın başlıca amillərdən olduğunu həmişə ön plana çəkib. «Çünki bizi millət kimi qoruyub saxlayan məhz dilimiz, ədəbiyyatımız, tariximiz, ənənələrimizdir» - deyib.

«Heydər Əliyev və Azərbaycan ədə-

biyyaytı» adlı bu maraqlı əsərdən hasil etdiyim qənaətlər çoxdur. Onlardan biri, bəlkə də ən başlıcası odur ki, ilahinin Heydər Əliyevə bəxş etdiyi bitib-tükənməyən enerjini o, Azərbaycan xalqının gələcəyi naminə sərf etmişdir.

Müəlliflər öndərimizin miqyaslı fəaliyyəti ilə bağlı faktları zərgər dəqiqliyi ilə elə seçib, elə məharətlə təqdim ediblər ki, hər məqamda onlardan özün üçün bir yenilik hasil edirsən.

Tam əminliklə deyə bilərik ki, «Heydər Əliyev və Azərbaycan ədəbiyyaytı» əsəri bir yandan ulu öndərimizin həyata keçirdiyi tarixi işlərə layiqli töhfə olmaq baxımından, digər tərəfdən də ədəbiyyatşünaslıq elmimizin təntənəsi baxımından həqiqi qiymətini alıb, Azərbaycan Respublikasının Dövlət Mükafatına layiq görülüb.

# ƏDƏBİYYATŞÜNASLIQ ELMİMİZİN PATRİARXI*

Ömrünün altmış ilini ədəbiyyatşünaslıq elmimizə həsr edən, onun inkişafında xüsusi xidmətləri olan, görkəmli alim, sadə və təvazökar insan, akademik Bəkir Nəbiyevin 80 yaşı tamam olur. Titanik zəhməti, sonsuz məhəbbəti ilə elmin daşlı-kəsəkli yolları ilə irəliləyərək ədəbiyyatşünaslıq elmimizin zirvəsində Bakı Dövlət Universitetində dərs aldığı Məmməd Arif, Əli Sultanlı, Mir Cəlal, Cəfər Xəndan, Məmməd Cəfər, Həmid Araslı, Abbas Zamanov, Feyzulla Qasımzadə kimi böyük ustadların cərgəsində bərqərar olan Bəkir müəllimin ömür yoluna nəzər salanda bir daha dərk etdim ki, illəri illərə calayıb uzun ömür sürmək, necə gəldi yaşamaq hünər deyil, həyatı

---

* **Bax: «Azərbaycan» qəzeti, 21.08.10**

həyat kimi ləyaqətlə, mənalı yaşamaq, özündən sonra iz qoyub getmək hünərdir. Bu baxımdan akademik Bəkir Nəbiyev xoşbəxt insanlardandır. Ədəbiyyat elmini özünə həyat kredosu seçən, bir gün belə onsuz yaşamayan, ədəbiyyatımıza, onu yaradanlara alimin dərin məhəbbəti, bitib-tükənməyən enerjisi və buna təkan verən sahilsiz ümmana bənzər arzuları cild-cild kitabların, saysız-hesabsız elmi məqalələrin meydana gəlməsinə münbit şərait yaratmışdır. Bəkir müəllim Yaradanın əta etdiyi həyatının mənasını yazıb-yaratmaqda görür. Uzun ömür payı və istedadı sayəsində ədəbi prosesə, klassik ədəbi irsə, ədəbi tənqidə, ədəbi əlaqələrə, poeziyada sənətkarlıq məsələlərinin tədqiqinə 50-dən artıq kitab, doqquz yüzdən çox məqalə və resenziya həsr edən alim nəinki Azərbaycanda, keçmiş Sovetlər Birliyi ölkələrində, eləcə də Türkiyə, İran və İraqda görkəmli ədəbiyyatşünas kimi tanınır.

Hazırda akademik Bəkir Nəbiyev Nizami adına Ədəbiyyat İnstitutunda hazırlanan altı cildlik «Azərbaycan ədəbiyyatı tarixi» adlı fundamental əsərin baş redaktoru (əsərin üç cildi ingilis və rus dillərində geniş xülasə ilə artıq çap olunub), Azərbaycan Milli Ensiklopediyanın redaksiya heyətinin sədr müavini, AMEA Nizami adına Ədəbiyyat İnstitutunun direktoru, həmin institutun nəzdində Dissertasiya Şurasının sədridir. Bir çox doktorluq dissertasiyaları üzrə elmi məsləhətçi, namizədlik dissertasiyaları üzrə aspirant və dissertantların elmi rəhbəri olmuşdur. Ümumiyyətlə, alimin ədəbiyyatşünaslıq sahəsində yüksək ixtisaslı kadrların hazırlanmasında xidmətləri böyükdür.

Bu qədər vəzifə borcunu və yaradıcılıq işini yerinə yetirmək təbii ki, ədəbiyyatımızı və xalqımızı sonsuz məhəbbətlə sevən, bitib-tükənməyən istəklə yazıb-yaradan qələm sahiblərinin payına düşə bilər. Həqiqətən də bu sayda tədqiqat işini

ömrünü bütövlükdə ədəbiyyatşünaslıq elmimizə həsr edən, onun patriarxı adını qazanan, öz elm sahəsində böyük nüfuz sahibi olan bir alim edə bilərdi.

Diqqət çəkən odur ki, akademikin özünün də yaradıcılığı tədqiqatçıların, xüsusən də indi adlı-sanlı alimlər kimi yetişən tələbələri Vilayət Quliyev, Kamal Abdulla, Teymur Kərimli, Vaqif Arzumanlı, Nizaməddin Şəmsizadə, Elmira Rəhimova, Şirindil Alışanlı, Arif Əmrah oğlu və başqalarının tədqiqat obyektinə çevrilib, onlar müəllimləri haqqında sanballı məqalələr və kitablar yazmışlar. Burada AMEA-nın müxbir üzvü, professor Teymur Kərimlinin «Yaxşıların axıra qalmışı» adlı kitabını və professor Vaqif Arzumanlının yenicə çapdan çıxmış "Dəyərli ustad" (Akademik Bəkir Nəbiyev və ədəbi əlaqələrin öyrənilməsi və inkişafı problemləri) monoqrafiyasını qeyd etmək istərdim.

Uzun illərdən bəri dostluq münasi-

bətində olduğum Bəkir müəllimin yaradıcılığına dərin məhəbbət, şəxsiyyətinə ehtiram hissi ilə yaşayanlardan biri də mən olmuşam. Alimin hədiyyə etdiyi hər bir kitabını oxuduqca əsər məni ağuşuna alıb böyük ideyaların bərqərar olduğu, arzuların bitib-tükənmədiyi bir aləmə aparıb. Bəkir müəllimdən bəhs edən bir məqaləmdə göstərdiyim kimi, bu aləmdə usanmadan külüng çalan, ədəbiyyatşünaslıq elmimizin keşiyində müsəlləh əsgər kimi dayanan, yaşamağı yazıb-yaratmaq üçün qənimət sayan, böyük bir elmi müəssisənin görə biləcəyi vüsətli işləri təkbaşına görən, həyatı, yaradıcılığı, insanlara münasibəti, xeyirxahlığı, bəlağətli nitqi, müdrikliyi ilə örnək olan Bəkir Nəbiyev zirvəsi möhtəşəmliyi ilə diqqəti cəlb edir. Bu zirvədən ədəbiyyatşünaslıq elmimizin geniş üfüqləri apaydın görünür. Məhz buna görə də Bəkir müəllimdən, onun məhsuldar yaradıcılığından yazmaq adama məmnunluq gətirir.

Səmimiyyətlə etiraf edim ki, Bəkir

müəllimin yaradıcılığına həsr etdiyim «Nə yaxşı dünyada yaxşı var imiş», «Tarix qurub-yaradanları yaşadır», «Böyük yolun yolçusu», «Tarixi səfərin bəhrəsi», «Gərgin əməyin bəhrəsi», «Ədəbiyyatşünaslıq elmimizin təntənəsi» kimi məqalələrimi yazaraq mötəbər mətbu orqanlarda – «Azərbaycan» qəzeti və «Azərbaycan» jurnalında, eləcə də «Ədəbiyyat qəzeti»ndə çap etdirəndə, "Bəkir Nəbiyev - 75" (filologiya üzrə fəlsəfə doktoru Gülzar İbrahimqızı ilə birgə) hazırladığım kitab (2005) işıq üzü görəndə qürur hissi keçirmişəm. Akademikin «Heydər Əliyev haqqında etüdlər» kitabına həsr elədiyim «Tarix qurub-yaradanları yaşadır» məqaləmin ictimaiyyətin böyük marağına səbəb olduğunu xüsusi qeyd etmək mənə əvəzolunmaz məmnunluq gətirir. Bəkir müəllimin bu əsəri onun təşəbbüsü və fəal iştirakı ilə yazılan «Heydər Əliyev və Azərbaycan ədəbiyyatı» kitabına daxil edilib və bu kitaba görə müəlliflər: aka-

demik Bəkir Nəbiyev, müxbir üzv Teymur Kərimli, professorlar Məhərrəm Qasımlı, Vilayət Quliyev, Nizaməddin Şəmsizadə və filologiya elmi üzrə fəlsəfə doktoru, dosent Nikpur Cabbarlı bu il Dövlət Mükafatına layiq görülüblər.

Bəkir müəllimin «Heydər Əliyev haqqında etüdlər» əsəri mənim qənaətimə görə Azərbaycan tarixində bir epoxa olan, xalqın qürur və güvənc yerinə çevrilən, Azərbaycanın tarixi salnaməsinə qızıl hərflərlə yazılan bu bənzərsiz şəxsiyyət haqqında yazılan ən dəyərli əsərlərdəndir. Hər cümləsinin xüsusi çəkisi olan, böyük mətləblərdən söz açan kitabdan ulu öndərimizlə bağlı bir çox qənaətlər hasil edilir. Kitabdan göründüyü kimi Heydər Əliyevin bədii ədəbiyyat, ədəbiyyatşünaslıq, tənqid, bədii tərcümə, klassik irs, ədəbi proses və s. barədə fikir və ideyaları indi də aktual olaraq qalır.

Sevindirici haldır ki, prezidentimiz İlham Əliyev öndərimizin fikir və ideya-

larının həyata keçməsində ardıcıl olaraq əlindən gələni edir, ədəbiyyatımız, elmimiz və dilimizin inkişafı yolunda xidmət göstərənlərin əməyini layiqincə qiymətləndirir. Ədəbiyyatımıza və xalqa xidmətinə görə əməyi yüksək qiymətləndirilən alimlərimizdən biri də akademik Bəkir Nəbiyevdir.

Bəkir müəllim demək olar ki, bütün titullara, fəxri adlara, ordenlərə, yüksək mükafatlara (təkcə onu demək kifayətdir ki, iki dəfə Dövlət Mükafatı alıb) layiq görülmüş nüfuzlu alimdir. Dalbadal çap olunan məqalə və kitabları bu qənaətə gəlməyə imkan verir deyək ki, akademik Bəkir Nəbiyev bu yaşda da ömrünün mənasını yazıb-yaratmaqda, xalqa xidmətdə görür.

Yeri gəlmişkən deyək ki, alim hazırda dahi bəstəkar Üzeyir Hacıbəyovun həyat və yaradıcılığına həsr olunan böyük bir monoqrafiyanı bitirmək üzrədir. Bu kitabda Üzeyir bəyin ədəbiyyatşünaslıq və

publisistik fəaliyyətinin qaranlıq qalan bir çox məqamlarına aydınlıq gətirilir və həqiqi qiymətini alır.

Uzun illər Azərbaycan Elmlər Akademiyası Ədəbiyyat, Dil və İncəsənət Bölməsinin akademik-katibi, Azərbaycan Elmlər Akademiyası «Xəbərləri»nin (Ədəbiyyat, dil və incəsənət seriyası üzrə) baş redaktoru, on ilə yaxın AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun direktoru kimi tutduğu məsul vəzifələrin diktəsi ilə hümanitar elmlərin, xüsusən də ədəbiyyatşünaslıq elminin bütün ağırlığını çiyinlərində daşıyan, ədəbi-bədii fikrimizin inkişaf yollarını müəyyənləşdirən, doğru məcraya yönəldən Bəkir müəllim ömrünün bu çağında da ədəbi prosesin fəal iştirakçısı olaraq qalır. Alimin gündəlik əzmkar fəaliyyəti örnək olmaq baxımından xüsusi məna kəsb edir. Başqalarına örnək olmaq isə böyük xoşbəxtlikdir. Bu xoşbəxtliyi Bəkir müəllim gərgin əməyi, insanlara təmənnasız köməyi, xeyirxahlığı sayə-

sində əldə etmişdir.

On il bundan öncə akademik Bəkir Nəbiyevin soraq kitabçası çıxmışdı. Həmin kitab alimin «Bir də fürsət olacaqmı?» adlı ön sözü ilə açılırdı: «Altmış doqquz yaşın içindəyəm. Bu hələ 70 deyilsə də, hər halda yeddinci onluğun sonuna doğru gedirəm… əgər tale üzümə gülsə, bir də görəcəyəm ki, budur yetmiş də tamam oldu…»

Yetmiş də tamam oldu, 75-də. Bu münasibətlə Bəkir müəllim soraq kitabçasının daha mükəmməl nəşrini oxuculara təqdim etdi. Ön sözdə yazdı: «Səxavəti sonsuz olan tanrının iradəsi ilə mənə bir də fürsət verilmişdir. Artıq mən həyatımın 75-ci ilini yaşayıram…»

Həyat və Bəkir müəllimin səmərəli, mənalı həyatı davam edir. İndi Bəkir müəllimin 80 yaşı tamam olur. Mən şübhə etmirəm ki, 10 ildən sonra Bəkir müəllim 90 illik yubileyi münasibətilə çıxan soraq kitabında yazacaq ki, səxavəti sonsuz olan

tanrı ədəbiyyatımıza, ədəbiyyatşünaslıq elmimizə olan sonsuz məhəbbət ona 90-nı haqlamağa imkan vermişdir.

Bunu deməyə haqqı olacaq. Bu böyük şəxsiyyətin geniş qəlbi, xeyirxahlığı və elm fədaisi olmağı bunu deməyə əsas verir. Paxıllıq, kin-küdurət nə olduğunu bilməyən, qəlbi başqalarına xeyirxahlıqla döyünən şəxs ilahidən gələn enerji ilə çox yaşayar. Bir də ki, qədim Çin mütəfəkkiri Konfutsının düşündürücü kəlamı var: «Elm, bilik elə bir həzz mənbəyidir ki, o insana hər şeyi, hətta fiziki iztirabı, necə qocaldığını belə unutdura bilir».

Çin filosofunun kəlamı sanki yorulmaq bilmədən çalışan, xalqımıza qədərincə xidmət edən, ədəbiyyatşünaslıq elmimizin patriarxı, akademik Bəkir Nəbiyevin boyuna biçilib.

## MÜNDƏRİCAT

**PATRİARXIN PAYIZI (Asif Rüstəmli)..................3**
**NƏ YAXŞI DÜNYADA YAXŞI VAR İMİŞ…......12**
**TARİX QURUB-YARADANLARI YAŞADIR.......18**
**BÖYÜK YOLUN YOLÇUSU................................33**
**TARİXİ SƏFƏRİN BƏHRƏSİ.............................44**
**YARIMƏSRLİK GƏRGİN ƏMƏYİN BƏHRƏSİ..........................................................54**
**ƏDƏBİYYATŞÜNASLIQ ELMİMİZİN TƏNTƏNƏSİ......................................................80**
**ƏDƏBİYYATŞÜNASLIQ ELMİMİZİN PATRİARXI.........................................................93**

*Yığılmağa verilib: 01.08.2010*
*Çapa imzalanıb: 20.08.2010*
*Kağızın formatı: 70x100 1/32*
*Sifariş № 21, Tirajı: 250 nüsxə*

*Kitab ADMİU-nun mətbəəsində çap edilmişdir.*

***Bakı şəhəri, H.Zərdabi küç. 39a***

Ar 2010
2701



*Bəkir müəllim yaşamağı yaratmaq üçün qənimət sayır. Onun çap etdirdiyi əsərlərini nəzərdən keçirdikdə inanmaq olmur ki, bir ömürdə insan bu qədər iş görə bilərmiş!*